

## Yeni Azərbaycan Partiyası İCAPP-ın 20 illik yubiley tədbirində təmsil olunub

7

Səs
№ 205 (6405) 11 noyabr 2021-ci il. Qiymətı 40 qəpik

# Zəfər yolundan növbəti qələbələrə doğru!



*Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəfər Günü ərəfəsində gerçəkləşdirdikləri tarixi Şuşa səfərləri bir sıra mühüm faktorları ilə seçilir*

7

# Ermənistanın kapitulyasiya aktı: səbəbləri və 1 ildəki nəticələri

15



MUSAVAT.COM

*Keçən il - noyabrın 10-da Moskvada imzalanmış üçtərəfli bəyanat faktiki olaraq müharibənin qalibini və məğlubunu təsdiq etdi və Ermənistanın Qarabağ üzərindəki real hakimiyyətinə son qoydu. Azərbaycan və Ermənistan arasında bu kontekstdə imzalanmış üçtərəfli bəyanatı həm erməni, həm də digər xarici siyasi analitiklər İrəvanın kapitulyasiyası adlandırırlar. Bu yazıda razılaşmanın əhəmiyyətini və keçən 1 ildəki nəticələrini təhlil etməyə çalışacağıq.*



## Ərdoğan: "Türkiyə bütün platformalarda Azərbaycanın yanında olmaqda davam edəcək"

*Bu gün Azərbaycanın Qarabağı və işğal altındakı ərazilərini 44 günlük şanlı bir savaş nəticəsində azad etməsinin birinci ildönümüdür. Beynəlxalq ictimaiyyətin gözü qarşısında təxminən otuz illik işğala son qoyan qardaşım, Prezident İlham Əliyev başda olmaqla azərbaycanlı qardaşlarımı bir daha təbrik edirəm.*

# Mahir "Legiya"nın lideridir



*Futbol üzrə Milli komandamızın hücumçusu Mahir Emreli bu mövsüm komandası "Legiya"nın ən yaxşı futbolçusudur. Qol.az xəbər verir ki, Polşa mətbuatının açıqladığı statistikaya əsasən, 24 yaşlı futbolçumuz bütün turnirlər (Ekstraklasa, Çempionlar Liqası, Avropa Liqası, Polşa kuboku və Polşa Superkuboku) üzrə komanda yoldaşlarını qabaqlamağı bacarıb.*



16

## Modelin 1 milyonluq hesabı bağlanır

*Slovakiyalı model Veronika Rajek "İnstaqram"da problem yaşayır. SİA xarici mətbuata istinadən xəbər verir ki, modelin 1,1 milyon izləyicisi olan hesabı davamlı olaraq bağlanır...*

8

## Dünya mətbuatı Azərbaycanın möhtəşəm Zəfər Günündən yazır!




*Yaponiyanın nüfuzlu "Hokkaydo Shimbun" qəzeti Azərbaycanın Zəfər Gününə həsr olunan xüsusi məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, "Dağlarda yenidənqurma - Azərbaycanın qayıdışının bir ili" adlı məqalədə müəllif, tanınmış jurnalist Norisada Takaşi işğaldan azad edilən ərazilərə səfəri və burada gördükləri barədə təəssüratlarını oxucularla...*

## Bu saatlarda yatmaq ürəyə xeyirdir



16



## "10 noyabr tarixli bəyanatla Azərbaycan dünya tarixinə düşdü"

10

*"10 noyabr 2020-ci il tarixində üçtərəfli bəyanatın imzalanmasına gətirib çıxaran yol 44 günlük Vətən müharibəsi ilə kifayətlənmir desək, heç...*




## "Görəcəyimiz tədbirlər daha sərt və təsirli olacaq!"

7

Azərbaycan Müdafiə Nazirliyi Ermənistanın hərbi-siyasi rəhbərliyinə növbəti dəfə xəbərdarlıq edib. xəbər verir ki, bu barədə nazirliyin...

# Azərbaycanla Türkiyəni tarixi qardaşlıq əlaqələri birləşdirir

## *Prezident İlham Əliyev*

*Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım nümayəndə heyəti adından Prezident İlham Əliyevi və Azərbaycan xalqını tarixi Zəfər Günü münasibətilə təbrik etdi və ən xoş arzularını çatdırdı. Dövlətimizin başçısı təbrikə və xoş arzulara görə minnətdarlığını bildirdi.

Görüşdə Vətən müharibəsində əldə etdiyimiz Qələbənin önəminə toxunularaq, bunun bütün türk dünyası tərəfindən böyük sevinc hissi ilə qarşılandığı bildirildi. Müharibənin ilk günlərindən Türkiyə dövlətinin, şəxsən Prezident Rəcəb Tayyib Ərdoğanın və türkiyəli parlamentarilərin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək xüsusi olaraq vurğulandı. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olundu.

# Şamil Ayrım: "Qarabağ can içində candır, Qarabağ əbədi Azərbaycandır"



***Biz buraya "Qarabağ can içində candır, Qarabağ əbədi Azərbaycandır" düşüncəsi ilə gəldik. Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupu olaraq önəmli iki günü Azərbaycanla birlikdə qeyd etmək imkanımız oldu. Azərbaycanın Zəfər Gününü və Dövlət Bayrağı Gününü 83 milyonluq Türkiyə xalqı adından ürəkdən təbrik edirik.***

AZƏRTAC xəbər verir ki, bu sözləri ölkəmizdə səfərdə olan Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım jurnalistlərə müsahibəsində deyib.

Ş.Ayrım bildirib: "Azərbaycanla təmaslarımız davam edir. Müharibədən sonra ilk dəfə olaraq Azərbaycana səfərə gəlmişik. Bu gün bizim üçün həm sevincli, həm də kədərli gündür. Çünki bu gün qazi Mustafa Kamal Atatürkün vəfat günüdür. Qarabağ Zəfərindən sonra imzalanan Şuşa Bəyannaməsi Türkiyə-Azərbaycan əlaqələri daha yüksək səviyyəyə çatıb. Bəyannamədə nəzərdə tutulur ki, əgər iki dövlətdən hər hansı birinə qarşı təhlükə hiss edilərsə, Azərbaycan və Türkiyə lazım olanı edəcək".

Türkiyə ilə Azərbaycanın qardaş ölkələr olmaqla bərabər, həm də dost və müttəfiq olduqlarını deyən Şamil Ayrım qeyd edib ki, səfər çərçivəsində Quba Soyqırımı Memorial Kompleksinin və ərazidəki kütləvi məzarlığın ziyarət edilməsi nəzərdə tutulur.

# Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlər çox yaxşı tarixə malikdir

## *Prezident İlham Əliyev Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkməni qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkəmizin müstəqillik qazandığı ilk günlərdən Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin çox yaxşı tarixə malik olduğu və hazırda əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Enerji sahəsində səmərəli əlaqələrə toxunularaq BP şirkətinin Azərbaycanda uzun müddətdir uğurla fəaliyyət göstərdiyi vurğulandı.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın önəmi qeyd edildi. Görüşdə əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Zəfər yolundan növbəti qələbələrə doğru!

*Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəfər Günü ərəfəsində gerçəkləşdirdikləri tarixi Şuşa səfərləri bir sıra mühüm faktorları ilə seçilir*



Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərinə səfər ediblər və bu səfər də daha əvvəlki səfərlər kimi öz tarixi əhəmiyyəti, eləcə də bir sıra mühüm faktorları ilə seçilir. Fakr isə budur ki, Dövlət Başçısının və birinci xanımın işğaldan azad edilmiş torpaqlarımıza səfərləri hər dəfə öz qürurverici yenilikləri ilə yadda qalmaqdadır. Bu səfərlər eyni zamanda, Azərbaycanın gücünü, qüdrətini bütün dünyaya, beynəlxalq aləmə nümayiş etdirməkdədir. Məhz Prezident İlham Əliyevin rəhbərliyi və nəzarəti altında sürətlə aparılan tikinti-quruculuq işlərindən başlayaraq digər proseslərə qədər bütün reallıqlar sübut edir ki, 30 il boyunca düşmən işğalı altında qalmış torpaqlarımız öz sahiblərinə qayıdıb və onun sahibləri qurucular, yaradıcılardırlar.

Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Zəfər Günü ərəfəsində Şuşa səfərini gerçəkləşdirmələri də əlbəttə ki, Füzuli rayonundakı Zəfər yolundan və onun rəsmi açılışından başlaması da bütün dünyaya sübut etdi ki, Azərbaycanın Zəfəri həm də onun inkişafının, tərəqqisinin növbəti başlanğıc mərhələsiddir. Eyni zamanda, Zəfər yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi Azərbaycan xalqının qazandığı parlaq Qələbənin bariz simvoludur. Şanlı və qalib Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi isə Azərbaycanın şərəf tarixinin danılmaz mücəssəməsidir.

## VIII Qlobal Bakı Forumunun Şuşaya səfər edən iştirakçıları Azərbaycanın Zəfər tarixinə öz gözləri ilə şahid olublar

Prezident və xanımı Şuşada olarkən onlarla birgə mədəniyyət beşiyimiz, incimiz olan bu şəhəri ziyarət etməyə VIII Qlobal Bakı Forumunun iştirakçılarını da dəvət emişdilər. Onların təəsüratları isə söz yox ki, yalnız heyranlıqları ilə müşahidə olunub. O da əbəs deyil ki, Zəfər Günü münasibətilə Prezident İlham Əliyevi təbrik edən qonaqlar qısa vaxtda burada belə genişmiqyaslı işlərin görülməsinin böyük təəssürat yaratdığını vurğuladılar. Bu işlərin Azərbaycan Prezidentinin qətiyyətli və səriştəli rəhbərliyi, cəsarətli mövqeyi sayəsində reallaşdığını bildirmələri ilə yanaşı, həm də böyük nailiyyət münasibətilə ölkə rəhbərimizi daha təbrik ediblər.

Qonaqlarla söhbəti zamanı Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərdə, həmçinin Şuşada bir ildən az vaxt ərzində sosial və infrastruktur obyektlərinin tikildiyini, yenidən qurulduğunu və bu işlərin hazırda da davam etdirildiyini deyib və bildirib ki, əsas hədəf azad olunan ərazilərdə keçmiş məcburi köçkünlər üçün yüksək yaşayış şəraitinin yaradılmasıdır. Azərbaycan Prezidenti bərpa və yenidənqurma işlərinin tarixi və dini abidələri də əhatə etdiyini diqqətə çatdırıb.

Eyni zamanda, xarici qonaqlar ermənilərin dağıtdıqları tarixi abidələri və törətdikləri vandalizm aktlarını öz gözləri ilə gördüklərini bildiriblər.

Dövlətimizin başçısı mürəkkəb relyefə malik olan Şuşa şəhərinin Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı və şücaəti hesabına azad olunduğunu dedi. Prezident İlham Əliyev Vətən müharibəsindəki Qələbədən sonra Cıdır düzündə bir çox tədbirlərin təşkil olunduğunu, burada musiqi festivallarının keçirildiyini qeyd edib.









## Prezident İlham Əliyevin daha bir tarixi kəlamı: "Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirmişdir"

Səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbçilər qarşısında da çıxış edib.

Vətən müharibəsində canlarını torpaqlarımızın düşmən işğalından azad edilməsi üçün fəda edən şəhidlərimizin xatirələri bir dəqiqəlik sükutla yad edilib. Dövlət başçımız vurğulayıb ki, bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir: "Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir.

İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirmişdir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə, öz əməli ilə yaxınlaşdırmalıdır. Mən demişdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və biz işğala son qoymaq üçün bütün gücümüzü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduq".

Ali Baş Komandan: "Buna hazır olmalı idik, xalq olaraq, dövlət olaraq, bütün hazırlıq işləri vaxtlı-vaxtında aparılmalı idi və aparılmışdır"

Ardı Səh. 4

# Zəfər yolundan növbəti qələbələrə doğru!

*Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəfər Günü ərəfəsində gerçəkləşdirdikləri tarixi Şuşa səfərləri bir sıra mühüm faktorları ilə seçilir*








*"İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirmişdir"*






Əvvəli-Səh-3

Müzəffər Sərkərdə, Ali Baş Komandan İlham Əliyev 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçilən zaman Azərbaycan xalqına müraciətini də xatırladaraq bildirib ki, həmin vaxtlarda O, nəyin bahasına olursa-olsun, öz tarixi torpaqlarımızı düşmənin əlindən geri alınacağı sözünü vermişdi: "İstər sülh yolu ilə, istər müharibə yolu ilə və belə də oldu. Uzun illər aparılan sülh danışıqları heç bir nəticə vermədi. Nəticə sıfra bərabər oldu. Əksinə, düşmən daha da azğınlaşmış, qudurmuşdu. Əgər işğalın ilk illərində hələ danışıqlarla bağlı Azərbaycan xalqında və məndə hər hansı bir ümidlər var idisə, son vaxtlar bu ümidlər tamamilə aradan qaldırıldı. Ermənistan və onun havadarları bu işğalı əbədi etmək istəyirdilər. Onlar hesab edirdilər ki, əgər bizim torpağımızı 30 ilə yaxın işğal altında saxlaya biliblərsə, bundan sonra da torpaqları əbədi olaraq işğal altında saxlayacaqlar. Amma səhv etdilər. Onlar bilməli idilər ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Bilməli idilər ki, biz düşməni torpağımızdan nəyin bahasına olursa-olsun qovacağıq. Buna hazır olmalı idik, xalq olaraq, dövlət olaraq, bütün hazırlıq işləri vaxtlı-vaxtında aparılmalı idi və aparılmışdır".

### Ölkə rəhbəri: "Bu illər ərzində biz güclü hərbi-texniki potensial yaratmışıq"

Təbii ki, ordu quruculuğu və Silahlı Qüvvələrimizin potensialının ən yüksək səviyyəyə yüksəldilməsi də Azərbaycan dövlətinin ilk vəzifəsi idi və dövlət başçımız bu vəzifənin də öhdəsindən artıqlaması ilə gəlib. Əbəs deyil ki, bu gün Azərbaycan ordusu dünyanın ən güclü orduları sıralamasında yüksək yerlərdən birini tutmaqdadır: "Bildiyiniz kimi, ordu quruculuğu, hərbi potensialımızın möhkəmləndirilməsi mənim Prezident kimi başlıca vəzifəm idi və təsadüfi deyil ki, mənim Prezidentlik dövrümdə dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulurdu. Bu illər ərzində biz güclü hərbi-texniki potensial yaratmışıq. Ən müasir silahlar, sursatlar, texnikalar ölkəmizə gətirilmişdi və hərbçilər tərəfindən bu texnika layiqincə istifadə olundu. İkinci Qarabağ müharibəsi bunun əyani sübutudur. Ordumuzun döyüş qabiliyyəti böyük dərəcədə artdı. Müntəzəm olaraq hərbi təlimlər keçirildi, məşqlər keçirildi və beləliklə, ordumuzun həm texniki təchizatı, həm mənəvi-psixoloji ruhu, həm də döyüş qabiliyyəti böyük dərəcədə artdı".

### Dövlət başçısı: "Bu gün dünya miqyasında iqtisadi potensial baxımından və iqtisadi sabitlik baxımından Azərbaycan birinci sıralardadır"

Daha bir danılmaz amil budur ki, Azərbaycan dövləti öz ordusunu möhkəmləndirmək üçün iqtisadi inkişafını da həyata keçirməli idi və bu addımların uğurlu nəticələri sayəsində müdafiə qabiliyyəti ən yüksək səviyyəyə çatdırıldı və bu gün dünyanın qarşısında yalnız ən müasir ordu deyil, həm də qalib Azərbaycan Silahlı Qüvvələri dayanmaqdadır.

Ardı Səh. 5

ANALİTİKA-AKTUAL






# Zəfər yolundan növbəti qələbələrə doğru!

*Prezident Ilham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəfər Günü ərəfəsində gerçəkləşdirdikləri tarixi Şuşa səfərləri bir sıra mühüm faktorları ilə seçilir*







*"Onlar bilməli idilər ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Bilməli idilər ki, biz düşməni torpağımızdan nəyin bahasına olursa-olsun qovacağıq"*







**Əvvəli-Səh-4**

Ölkə rəhbərimiz bu mənada vurğulayıb: "Biz iqtisadiyyatı gücləndirməli idik və yaxşı başa düşürdük ki, buna nail olmasaq biz düşməni torpaqlarımızdan qova bilməyəcəyik. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi.

Çünki əgər biz asılı vəziyyətdə olsaydıq, hansısa başqa böyük dövlətlərdən asılı olsaydıq, heç vaxt bizə imkan verməzdilər ki, biz bu şərəfli missiyanı yerinə yetirək. Ona görə Prezident kimi ilk günlərdən iqtisadi müstəqilliyə hesablanmış bütün lazımi addımlar atıldı və qısa müddət ərzində biz buna nail olduq. Bu gün dünya miqyasında iqtisadi potensial baxımından və iqtisadi sabitlik baxımından Azərbaycan birinci sıralardadır. İqtisadi müstəqillik əldə edilməsəydi, siyasi müstəqillikdən söhbət gedə bilməzdi. Biz asılı vəziyyətdə ola bilərdik. Necə ki, bu gün bir çox ölkələr asılı vəziyyətdədir və məhz buna görə öz iradəsini ortaya qoya bilmirlər. Siyasi müstəqillik imkan verdi ki, biz bütün tərəfdaşlarla bərabərhüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qura bildik. Beləliklə torpaqlarımızın azad edilməsi üçün əsas şərtlərdən biri təmin edilmişdi".

## Prezident: "Biz bütün dünyaya göstərdik ki, kim kimdir"

Dövlət rəhbərimiz vurğulayıb ki, ötən illər ərzində biz, yəni Azərbaycan dövləti Qarabağ həqiqətlərini, işğalla bağlı erməni vəhşiliyini dünya ictimaiyyətinə çatdıra bilib. Lakin Birinci Qarabağ müharibəsindən sonrakı ilk dövrdə biz buna nail ola bilməmişdik. SİTAT: "Ona görə dünyada müharibə ilə bağlı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvür var idi. Biz bunu aradan qaldırdıq. Gecə-gündüz çalışaraq dünya ictimaiyyətini məlumatlandırdıq, aparıcı beynəlxalq təşkilatlarda uğurlu iş apararaq bizə əl verən və həqiqəti əks etdirən qərar və qətnamələri qəbul etdirdik. Bütün bu işlər bugünkü reallıq üçün hüquqi bazadır. Çünki bu gün biz düşməni torpağımızdan qovandan sonra heç kim bizə irad tuta bilməz.

*Ardı Səh. 6*

ANALİTİKA-AKTUAL



# Zəfər yolundan növbəti qələbələrə doğru!

*Prezident Ilham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəfər Günü ərəfəsində gerçəkləşdirdikləri tarixi Şuşa səfərləri bir sıra mühüm faktorları ilə seçilir*

***"Bu gün dünya miqyasında iqtisadi potensial baxımından və iqtisadi sabitlik baxımından Azərbaycan birinci sıralardadır"***

Əvvəli-Səh-5

Biz öz torpağımızda uğurlu əməliyyat aparmışıq, biz beynəlxalq hüququ pozmamışıq, müharibə qanunlarını pozmamışıq. Ədalətli müharibə aparmışıq və döyüş meydanında düşməni məğlub etmişik.

Digər önəmli amil gənc nəslin tərbiyəsi ilə bağlı idi. Çox yaxşı başa düşürdük ki, əgər bizim silahımız da, sursatımız da olsa, iqtisadiyyatımız da güclü olsa, beynəlxalq müstəvidə də uğur qazansaq, əgər bizim vətəndaşlar torpaq uğrunda, Vətən uğrunda öz gücünü göstərməsələr, qalan amillərin heç bir əhəmiyyəti olmayacaq. Tərbiyə işlərinə çox böyük fikir verərək gəncləri vətənpərvərlik ruhunda tərbiyə etdik. İmkan vermədik ki, işğalla bağlı olan tarix unudulsun. Qarabağı unutmadıq, əksinə, hər bir kürsüdən bu məsələ ilə bağlı istər ölkə daxilindəki tədbirlərdə, istər beynəlxalq tədbirlərdə daim bu mövzu birinci nömrəli mövzu idi. Gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib öz qanı bahasına düşmənin əlindən bizim müqəddəs torpaqlarımızı ala bildilər. Bütün bu faktorların vəhdəti bizim Qələbəmizi şərtləndirdi".

"Bir daha demək istəyirəm, açıq-aydın görünürdü ki, düşmən öz xoşu ilə torpağımızdan çıxmaq istəmir, daha da azğınlaşır və Azərbaycan xalqının heysiyyətinə toxunmaq üçün qəbuledilməz addımlar atır və bəyanatlar verir. "Qarabağ Ermənistandır" deməklə Ermənistan təkcə danışıqlar prosesinə son qoymadı, eyni zamanda, bu, bizim üçün təhqir idi", vurğulayan Prezident İlham Əliyev bizim üçün müqəddəs olan, Qarabağın tacı olan Şuşada saxta andiçmə mərasimi keçirilməyin də bizim üçün təhqir olduğunu deyib: "O şeytan yuvası, - harada ki, o tədbir keçirilmişdi- qəhrəman Azərbaycan Ordusu tərəfindən müharibə dövründə darmadağın edildi. Şuşaya qondarma qurumun qondarma "parlamentinin" köçürülməsi bizə növbəti dəfə sataşmaq idi. Ermənistan bizi təkəbbürlə, yekəxanalıq göstərərək yeni işğalla hədələyirdi. Biz nə qədər dözməli idik? Kimsə onların dərsini verməli idi, ya yox? Bax, sizin simanızda minlərlə, on minlərlə Azərbaycan gənci, əsgəri, zabiti sinəsini qabağa verərək düşmənə öz yerini göstərdi, düşməni elə vəziyyətə saldı ki, o vəziyyətdən o, əbədi çıxa bilməyəcək. Artıq o, məğlubedilmiş xalq və dövlət damğası ilə əbədi yaşayacaq.








Hər il işğal dövründə düşmən bizim üçün müqəddəs olan Şuşada may ayında Şuşanın işğalını bayram edirdi. May ayında bu il bax, burada, Cıdır düzündə "Xarıbülbül" festivalı keçirildi, muğam səsləndi. Avqust ayında Vaqif Poeziya Günləri keçirildi, Vaqifin və digər dahi şairlərimizin şeirləri səsləndi. Artıq bu torpaqlarda, bu səmada bu torpaq üçün, bu səma üçün yad dildə nə mahnı eşidiləcək, nə başqa bir yersiz bəyanat səslənəcək. Bundan sonra bu diyara Azərbaycan dili hakim olacaq, necə ki, tarixdə belə olub. Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir. Bax, budur reallıq. Bunu biz əldə etmişik. Bütün beynəlxalq təzyiqlərə rəğmən, bütün hədə-qorxulara rəğmən, xalqımız yumruq kimi birləşdi, Ordunun arxasında dayandı və biz bu tarixi, şərəfli missiyanı yerinə yetirdik. 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmamışıq. Ermənistan ordusunda 10 min fərari ola-ola, Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmırdı. Bax, budur bizim milli ruhumuz, budur Azərbaycan ruhu.

Ermənistan işğal dövründə öz ordusu haqqında, guya döyüşkən əsgərləri haqqında mifologiya uydururdu: "yenilməz Ermənistan ordusu". Bəs hanı bu yenilməz ordu, Ermənistan ordusu? Pərən-pərən oldu, biz bunları cəmi 44 gün ərzində pərən-pərən saldıq. İmdad diləmişdilər, diz çökmüşdülər. Bizim şərtlərimizi qəbul edərək, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktını imzalayaraq bizim qabağımızda ağ bayraq qaldırdılar.

ANALİTİK-AKTUAL



Biz bütün dünyaya göstərdik ki, kim kimdir. Bütün dünyaya göstərdik ki, biz böyük xalqıq. Xalqımızın böyüklüyünü müharibə dövründə və müharibədən sonrakı bir il ərzində göstərdik. Ermənilər bütün şəhərlərimizi yerlə-yeksan etdilər. Bu yerlərə səfər edən Azərbaycan vətəndaşları, xarici vətəndaşlar gedirlər, məəttəl qalırlar, dəhşətə gəlirlər ki, bu dərəcədə vandallıq ola bilərmi? Bu dərəcədə nifrət ola bilərmi? Bu dərəcədə barbarlıq ola bilərmi? Bunu işğal dövründə ermənilər törədiblər. Bütün binaları sökərək, talayaraq, hətta qəbir daşlarını Ermənistana apararaq bu vəhşiliyi törətdilər. Biz isə müharibə dövründə müharibə qanunlarına riayət etdik, müharibə qanunlarını pozmadıq, özümüzü ləyaqətlə apardıq, necə ki, həyatda və siyasətdə özümüzü ləyaqətlə aparırıq.

Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir.

Əziz dostlar, əziz Azərbaycan xalqı. Mən sizi bu şanlı bayram münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan Ordusuna yeni qələbələr, Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

Eşq olsun Azərbaycan Ordusuna, eşq olsun Azərbaycan xalqına. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Beləliklə, növbəti tarixi Şuşa səfəri həm də dünyaya verilən daha bir sülh, inkişaf və tərəqqi mesajı oldu - bundan sonrakı dövrlər ərzində isə yaradan, tikib-quran Azərbaycan xalqı öz Prezidentinin ətrafında daha da sıx birləşməklə, sarsılmaz Xalq-Prezident vəhdəti ilə Zəfər Günündən başlayan yolu ilə qətiyyətlə növbəti qələbələrə doğru inamla, qürurla, fərəhlə addımlayacaq!

***Rövşən RƏSULOV***

# Ərdoğan: “Türkiyə bütün platformalarda Azərbaycanın yanında olmaqda davam edəcək”



*Bu gün Azərbaycanın Qarabağı və işğal altındakı ərazilərini 44 günlük şanlı bir savaş nəticəsində azad etməsinin birinci ildönümüdür. Beynəlxalq ictimaiyyətin gözü qarşısında təxminən otuz illik işğala son qoyan qardaşım, Prezident İlham Əliyev başda olmaqla azərbaycanlı qardaşlarımı bir daha təbrik edirəm. Qarabağ və Azərbaycanın digər ərazilərinin haqsız, hüquqsuz və əxlaqsız işğalı qarşısında 30 il boyunca susanlar bölgədə tökülən qanların və faciələrin məsuliyyətini daşıyırlar.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə hökumətinin növbəti iclasından sonra ictimaiyyətə ənənəvi müraciətində ifadə edib. Şəhidlərimizə Allahdan rəhmət, qazilərə şəfa diləyən Türkiyə dövlətinin başçısı Zəfərdən sonra işğaldan azad olunan ərazilərdə böyük abadlıq və quruculuq prosesini davam etdiyini xatırladıb, bölgədə yaranmış yeni vəziyyətin bütün tərəflər üçün faydalı olduğunu söyləyib.

Keçmiş məlum münaqişənin Ermənistanın əsas işğalçılığı və hücumları nəticəsində başlandığını, təcavüzkar tərəfin məqsədli şəkildə silahlandırıldığını diqqətə çatdıran Prezident Rəcəb Tayyib Ərdoğan əminliklə bildirib ki, qazanılmış Zəfərdən sonra yaranmış yeni vəziyyət Qafqazın strateji əhəmiyyətini daha da artıracaq. Türkiyə Zəngəzur dəhlizinin açılması da daxil olmaqla, bütün platformalarda Azərbaycanın yanında olmaqda davam edəcək.

# Əli Əhmədov Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüb



Dünən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini Əli Əhmədov Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunu qəbul edib. Bu barədə SİA-ya Nazirlər Kabinetindən məlumat verilib. Türkiyə Böyük Millət Məclisindən olan dostluq qrupu üzləri sırasında Ədalət və Yüksəliş, Cümhuriyyət Xalq və İYİ partiyalarının üzvləri təmsil olunur. Görüşdə dostluq qrupunun həmsədrləri, Türkiyə tərəfdən Şamil Ayrum və Azərbaycan tərəfdən Əhliman Əmiraslanov iştirak ediblər.

Ə.Əhmədov qeyd edib ki, münasibətlərin yüksək səviyyədə saxlanmasında və daimi inkişafında parlamentlərarası dostluq qrupunun xidməti böyükdür və bütün səviyyələrdən olan qarşılıqlı səfərlər bizi gücləndirir. Azərbaycan və Türkiyə xalqları, Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın qardaşlıq münasibətləri dövlətlərarası əlaqələrin möhkəm zəmanətidir.

Baş nazirin müavini 44 günlük savaşda Türkiyənin Azərbaycana verdiyi dəstəyin hər bir azərbaycanlının yaddaşına möhkəm həkk olunduğunu vurğuladı, Zəfər günü bayramında bütün küçə və meydanlarda Türkiyə və Azərbaycan bayraqlarının yanaşı dalğalandığına diqqəti cəlb edib. Ə.Əhmədov işğaldan azad olunmuş ərazilərdə bərpa işlərinin aparılmasında da Türkiyə şirkətlərinin mühüm rol oynadıqlarını vurğulayıb.

Dostluq qrupunun həmsədri Şamil Ayrum dostlqu qarupunun Azərbaycan Respublikasının Prezidenti İlhyam Əliyevlə görüşdən dərin təssüratlarını ifadə etdi. Bildirdi ki, Azərbaycan və Türkiyə 30 il əvvəlki dövlətlər deyil və ölkələrin bu səviyyəyə yüksəlməsi hər iki liderin yorulmaz səylərinin nəticəsidir. Qeyd olundu ki, iqtisadi əlaqələrin gücləndirilməsi, təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsi sahəsində real işlər görülməkdədir.

Şuşa bəyannaməsinin iki dövlətin münasibətlərini müttəfiqlik səviyyəsinə çatdırdığını və Azərbaycanın təhlükəsizliyinin həm də Türkiyənin təhlükəsiziliyi anlamına gəldiyi vurğulanıb. Söhbət zamanı bəzi işgüzar məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Yeni Azərbaycan Partiyası İCAPP-ın 20 illik yubiley tədbirində təmsil olunub



***Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) yaranmasının 20 illik yubileyinə həsr olunmuş videokonfrans formatında tədbir keçirilib. Əvvəlcə 2000-ci ildə əsası qoyulmuş və Asiya qitəsinin 52 ölkəsinin 350-dən artıq siyasi partiyasını birləşdirən İCAPP-ın fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. Sonra İCAPP Daimi Komitəsinin həmsədri, Koreya Respublikasının Xarici İşlər naziri Çunq Eui-yonq açılış nitqi söyləyib.***

Daha sonra İCAPP Daimi Komitəsinə üzv partiyaların ölkələrinin hökumət və parlament rəhbərlərinin təbrik məktublarından sitatlar səsləndirilib. Səsləndirilən təbriklər arasında Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarovanın İCAPP-a ünvanladığı məktub da yer alıb.

Tədbirdə, həmçinin, Daimi Komitə üzvlərinin İCAPP-a ünvanladıqları videoçarx formatında təbrik mesajları da nümayiş olunub. Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini Əli Əhmədovun təbrik çıxışı da təqdim edilib.

Yubiley tədbirində Latın Amerikası və Karib Hövzəsi Siyasi Partiyaları Daimi Komfransı prezidentinin, Afrika Siyasi Partiyaları Konfransı baş katibinin və Avropa Parlamenti nümayəndəsinin təbrik çıxışlarına da yer verilib.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ramin Məmmədov tədbirdə iştirak edib.

# “Görəcəyimiz tədbirlər daha sərt və təsirli olacaq!"

## Müdafiə Nazirliyi Ermənistanın hərbi-siyasi rəhbərliyinə xəbərdarlıq etdi




***Azərbaycan Müdafiə Nazirliyi Ermənistanın hərbi-siyasi rəhbərliyinə növbəti dəfə xəbərdarlıq edib. SİA xəbər verir ki, bu barədə nazirliyin yaydığı məlumatda qeyd olunub.***

"Müdafiə Nazirliyi bəyan edir ki, əgər buna oxşar təxribatlar gələcəkdə təkrarlanarsa, görəcəyimiz tədbirlər daha sərt və təsirli olacaq. Ümid edirik ki, Ermənistan ordusunun növbəti biabırçılığı ona dərs olacaq və gələcəkdə belə təxribat xarakterli addımlara yol verilməyəcək. Azərbaycan Ordusunun şəxsi heyəti və ərazi baxımından itkimiz yoxdur. Hazırda əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır. Ermənistan-Azərbaycan dövlət sərhədində baş verən son gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”, - deyə məlumatda vurğulanıb

# Dünya mətbuatı Azərbaycanın möhtəşəm Zəfər Günündən yazır!

***Yaponiyanın nüfuzlu "Hokkaydo Shimbun" qəzeti Azərbaycanın Zəfər Gününə həsr olunan xüsusi məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, "Dağlarda yenidənqurma - Azərbaycanın qayıdışının bir ili" adlı məqalədə müəllif, tanınmış jurnalist Norisada Takaşi işğaldan azad edilən ərazilərə səfəri və burada gördükləri barədə təəssüratlarını oxucularla bölüşür. Qeyd edir ki, ermənilərin bütün cəhdlərinə baxmayaraq, 30 ilə yaxın bir dövrdə işğal altında saxladıqları torpaqları Azərbaycan bir il bundan əvvəl azad edib. Keçmiş Sovet İttifaqının dağılmasından sonra uzun müddət işğal edilmiş bu əraziləri geri qaytaran Azərbaycan rəhbərliyi burada geniş quruculuq və bərpa işlərinə başlayıb. Bu işlər tezliklə əvvəllər bu ərazilərdə yaşamış insanların doğma yurdlarına qayıdışına şərait yaradacaq.***




Azərbaycan rəsmiləri ilə birlikdə Qarabağın dilbər guşəsi hesab edilən Şuşa şəhərinə səfər barədə yazan müəllif qeyd edir ki, məhz bu şəhərin azad olunması ilə döyüşlər başa çatıb. Ermənistan kapitulyasiya barədə üçtərəfli Bəyanatı imzalayıb.

Şuşanın dağlar qoynunda, gözəl bir məkanda yerləşdiyini qeyd edən yapon jurnalist burada onun diqqətini, ilk növbədə, yüksəklikdə dalğalanan Azərbaycan bayrağının cəlb etdiyini vurğulayıb. Hadisələrin tarixi barədə məlumat verərək, 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra ermənilərin bu əraziləri işğal etdiyini bildirir.

Ötən ilin sentyabrında başlayan müharibənin yekunu olaraq noyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə imzalanan üçtərəfli Bəyanatdan sonra Azərbaycan Şuşa da daxil olmaqla, ərazilərinin böyük hissəsini geri qaytarıb.

Məqalədə müəllif Şuşada aparılan böyük quruculuq işləri barədə də oxuculara məlumat verir. Burada yaşayış infrastrukturunun bərpa edildiyini bildirir. Azərbaycanlılar üçün bunun sonsuz sevinc olduğunu vurğulayır. Keçmiş məcburi köçkünlərin təxminən il yarımdan sonra doğma torpaqlarına qayıdacaqlarını qeyd edir. Şəhərin erməni işğalı altında olduğu dövrdə burada həyatın sanki donduğuna, heç bir quruculuq işlərinin aparılmadığına diqqət çəkir. Əksinə, azərbaycanlılara məxsus tarixi və dini abidələrin dağıdıldığını vurğulayır.

Məqalədə müəllif noyabrın 8-də Zəfər Gününün birinci ildönümü ilə əlaqədar Bakıda və Şuşada təşkil edilən şənliklər barədə məlumat verilir. Bayram iştirakçılarının "Qarabağ Azərbaycandır!" şüarını səsləndirdiklərini, əllərində Azərbaycan və Türkiyə bayraqlarını tutduqları qeyd edilir. Bildirilir ki, sarsıdıcı məğlubiyyətə baxmayaraq, Ermənistan Azərbaycan ərazilərində basdırılan minaların xəritələrini hələ də qarşı tərəfə təqdim etməyib.




Avstraliyanın "vibemedia.net.au" saytı 8 Noyabr - Zəfər Günü ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) bəyanatını yayıb. Belə ki, saytın "Azərbaycan xalqı Zəfər Gününü qeyd edir" başlığı altında yaydığı məqalədə bəyanatın mətni barədə məlumat verilir. Sənədə istinadla bildirilir ki, Azərbaycan xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən Zəfər Gününü qeyd edir.




Vurğulanır ki, 8 Noyabr - Zəfər Günü, Azərbaycan xalqının tarixinin şanlı səhifəsini təşkil etməklə, beynəlxalq hüquq və ədalətin təntənəsidir.

Xatırladılır ki, Ermənistanın təxribatına cavab olaraq, ötən il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarını işğaldan azad edib. Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyü təmin edilib, bir milyona yaxın azərbaycanlı məcburi köçkünün öz doğma evlərində yaşamaq hüququ bərpa olunub.




Yazıda qəhrəman Azərbaycan Ordusunun 44 gün davam edən döyüşlər nəticəsində 300-dən çox yaşayış məntəqəsini işğaldan azad etdiyi xüsusi vurğulanır. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı üçtərəfli Bəyanatla hərbi əməliyyatlara son qoyulduğu və Ermənistanın öz məğlubiyyətini etiraf edərək, Kəlbəcər, Ağdam və Laçın rayonlarından silahlı qüvvələrini çıxartdığı bir daha xatırladılır. Qeyd edilir ki, nəticədə münaqişə hərbi-siyasi yolla öz həllini tapıb.

Bildirilir ki, Azərbaycanın gələcəyə baxış strategiyasının əsasını dayanıqlı sülh, inkişaf və tərəqqinin təmin edilməsi təşkil edir. Ərazilərinin işğalı amilinin aradan qaldırılması ilə Azərbaycan, beynəlxalq hüququn prinsipləri, xüsusilə də suverenlik, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı prinsiplərinə ciddi riayət edilməsi əsasında Ermənistanla münasibətlərin normallaşdırılmasına hazırdır. Məqalədə, həmçinin Vətən müharibəsində Qələbənin birinci ildönümü ilə əlaqədar Bakıda təşkil edilən möhtəşəm yürüş barədə də məlumat verilir. Yürüş iştirakçılarının 44 günlük müharibənin rəmzi olaraq 440 metr uzunluqda Azərbaycan bayrağını daşıdığı xüsusi vurğulanır.

Qətərin çoxsaylı oxucu kütləsinə malik nüfuzlu "The Peninsula" qəzetində Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılovun müəllif yazısı dərc olunub. Səfirlikdən AZƏRTAC-a bildirilib ki, müəllif yazıda Azərbaycan xalqının tarixi Qələbəsindən bəhs edib. O bildirib ki, qəhrəman Azərbaycan xalqı dövlət müstəqilliyinin bərpasının ilk illərində torpaqlarının işğalı ilə üzləşsə də, bu ədalətsizliklə heç vaxt barışmayıb və tarixi ədaləti bərpa edib.




Azərbaycana gəldikdə ərazi bütövlüyü, suverenlik və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı kimi beynəlxalq hüququn əsas norma və prinsiplərinin lazımi dəstək almadığını təəssüflə qeyd edən səfir, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində işğala son qoyulduğunu ifadə edib.

"Azərbaycan xalqı öz liderinin ətrafında sıx birləşərək qüdrətini, mətanətini və mübarizliyini bütün dünyaya nümayiş etdirdi", - deyə qeyd edən səfir bildirib ki, 2020-ci il noyabrın 8-i 30 illik işğala son qoyan Müzəffər Ali Baş Komandan İlham Əliyevin və şanlı Azərbaycan əsgərinin qələmə aldığı tarixi bir gündür. Səfir R.İsmayılov, həmin çətin və şərəfli günlərdə siyasi dəstək göstərmiş dövlətlərə və onların xalqlarına minnətdarlığını ifadə edib.

Daha sonra o, Ermənistanın işğalı dövründə ərazilərimizdə törədilmiş vandallıq aktları və dağıntılara toxunub, hazırda işğalın acı nəticələrinin aradan qaldırılması istiqamətində görülməkdə olan yenidənqurma və bərpa işlərindən danışıb.

*Ardı Səh. 9*







# Dünya mətbuatı Azərbaycanın möhtəşəm Zəfər Günündən yazır!







Əvvəli-Səh-8

Füzuli Beynəlxalq Hava Limanının açılışının baş tutduğunu, Laçın və Zəngilan hava limanlarının təməlinin atıldığını, yeni magistral və dəmiryolların çəkildiyini, eləcə də "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi ilə yeni yaşayış məntəqələrinin salındığını vurğulayıb. "Biz Azərbaycanın bu bölgəsinə həyatı qaytaracağıq; yaşadığımız bütün bölgəyə sülh və inkişaf gətirəcəyik", - deyə səfir yazısının sonunda bildirib.

Rumıniyanın nüfuzlu "News24hours" xəbər portalı və "Ultima Ora" qəzeti Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfovun "8 Noyabr - 44 günlük Vətən müharibəsində Qələbə Gününün ildönümüdür" və "Azərbaycan Respublikasının Zəfər Günü" sərlövhəli məqalələrini dərc edib.

Məqalələrdə ölkəmizin 30 illik erməni işğalına son qoyan 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında və Azərbaycan Ordusunun şücaəti nəticəsində Qələbə qazanaraq, öz ərazi bütövlüyünü bərpa etdiyi və Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratdığı geniş təsvir edilib.

Münaqişənin tarixi aspektlərinə nəzər salan səfir, bu eskalasiyanın Ermənistanın 1991-1994-cü illərdə Azərbaycana qarşı hərbi təcavüzü kontekstində nəzərdən keçirdiyini və bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini, bir milyona yaxın azərbaycanlının etnik təmizləməyə məruz qaldığını, 30 il ərzində işğal etdiyi ərazilərdə Azərbaycanın mədəni irsinin dağıdılması, talan edilməsi və ələ keçirilməsi kimi faktları qeyd edib.

Diplomat bildirib ki, BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən dörd qətnamənin qəbul edilməsinə baxmayaraq, Ermənistan bu qətnamələri yerinə yetirməkdən qəsdən imtina edib. Eyni zamanda, Ermənistanın qeyri-konstruktiv və pozucu mövqeyində uzun illərdir münaqişənin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun səyləri heç bir nəticə verməyib. Bununla da, Azərbaycan öz ərazi bütövlüyünü təmin edərək, BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli müvafiq qətnamələrinin icrasını təkbaşına təmin etmiş oldu.

Serbiyanın nüfuzlu "Danas" qəzetinin 8 noyabr nömrəsində "Azərbaycan Qələbənin birinci ildönümünü qeyd edir" başlıqlı məqalə dərc olunub. Məqalədə noyabrın 8-də Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbəsinin birinci ildönümünün qeyd olunduğu vurğulanır. Bildirilir ki, bu Zəfər nəticəsində Ermənistan tərəfindən 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərimiz Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin iradəsi və igid əsgərlərimizin qəhrəmanlığı nəticəsində azad edilib.

Ermənilərin 1990-cı illərdə Azərbaycana təcavüzü nəticəsində ərazilərimizin 20 faizinin işğal edildiyi, minlərlə insanın qətlə yetirildiyi və bir milyondan çoxunun qaçqın və məcburi köçkünə çevrildiyi vurğulanır. Qeyd olunur ki, ötən dövrdə bütün mötəbər beynəlxalq təşkilatlar Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyib, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edib.

Məqalədə döyüş əməliyyatlarının növbəti dəfə başlamasının səbəbləri də açıqlanır. Bildirilir ki, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini, mülki insanların sıx şəkildə yaşadığı yerləri intensiv şəkildə atəşə tutması nəticəsində mülki əhali və hərbi qulluqçular həlak olub və yaralanıb, çoxsaylı mülki obyektlərə ciddi ziyan dəyib. Azərbaycan Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təxribatının qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirlərini həyata keçirib.




Yazıda qeyd edilir ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin imzaladığı üçtərəfli Bəyanatla Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzünə son qoyulub.

Məqalədə 30 illik işğaldan sonra azad edilən ərazilərdə nəhəng bərpa və yenidənqurma işlərinin başlandığı, regionun inkişafı üçün real imkanlar yarandığı barədə də məlumat verilir. Azərbaycanın yeni və perspektivli reallıqlardan faydalanaraq tərəfdaşları ilə birlikdə azad edilmiş ərazilərdə artıq böyük bərpa işlərinə başladığı vurğulanır.

Azərbaycan xalqımızın qüdrətinin və milli qürurunun təntənəsinə çevrilmiş Zəfər Günü münasibətİlə ispandilli nəşrlərdə (EFE informasiya agentliyi, İsveçrə ictimai teleradio yayım korporasiyasının (SRG SSR) ispandilli SWI swissinfo.ch versiyası, aparıcı xəbər portalları, Ekvadorun eldiario.es xəbərlər portalı) "Azərbaycan Qarabağdakı müharibədə Ermənistan üzərində Qələbəni bayram edir" sərlövhəli məqalə dərc edilib. Materiallarda xatırladılır ki, Azərbaycan Ordusunun strateji əhəmiyyətə malik Şuşanı azad etdiyi gün Zəfər Günü kimi qeyd olunur. Həmçinin bildirilir ki, Şuşanın azad edilməsi ilə Ermənistan faktiki olaraq təslim oldu.

İspandilli mətbuat Azərbaycanın Xarici İşlər Nazirliyinin bəyanatına istinadla yazır ki, rəsmi Bakı beynəlxalq hüquq əsasında Ermənistanla münasibətləri normallaşdırmağa hazırdır.

Məqalədə bildirilir ki, bu gün Azərbaycan öz Qələbəsini möhtəşəm təntənəli Zəfər yürüşü ilə qeyd edir. Yürüş boyunca Azərbaycan hərbçiləri uzunluğu 400 metrdən çox olan bayrağı başları üzərində daşıyıblar. Yürüşün sonunda fləşmob nümayiş etdirilib. Fləşmobda könüllü gənclərin iştirakı ilə İkinci Qarabağ müharibəsinin rəmzi olan "Dəmir yumruq" kompozisiyası yaradılıb.

Ərəb ölkələrinin qəzetləri və informasiya portallarında da 8 Noyabr - Zəfər Günü ilə bağlı məqalə və xəbərlər yayımlanır. Belə ki, İordaniyanın "Oroba" nəşrində Azərbaycanın bu ölkədəki səfiri Eldar Səlimovun Zəfər Gününə həsr olunmuş məqaləsi dərc edilib. Yazıda 44 günlük Vətən müharibəsinin səbəb və nəticələri, Şuşanın işğaldan azad edilməsindən sonra Ermənistanın kapitulyasiya aktı imzalaması və Qələbədən sonra ərazilərimizdə aparılan bərpa-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Misirin "Əl Diplomasi" portalı isə Azərbaycanın Dubaydakı baş konsulu Cavidan Hüseynovun Zəfər Günü münasibətilə bəyanatını yayıb. Diplomatımız Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasəti, BMT Təhlükəsizlik Şurasının işğal olunmuş əraziləri dərhal boşaltması barədə qətnamələrinə məhəl qoymaması, nəhayət, təcavüzkar ölkənin növbəti hərbi təxribatından sonra başlayan müharibədə Azərbaycan Ordusunun cəmi 44 gün müddətində ərazi bütövlüyümüzü təmin etməsindən bəhs edib.

İordaniyanın "Əl Ənbat" qəzetində, "Agnaden" portalında, Əlcəzairin "Əl Hərir" saytında iordaniyalı professor Niyazi Katayın Zəfər Gününə həsr olunmuş məqaləsi yayımlanıb.

Misirin "Nile1", "Əl Diplomasi", "Yeni dünya xəbərləri", "Əl Xəbər Əl Hədəf" portalları, həmçinin İraqın "Əfkarhür" qəzetində azərbaycanlı şərqşünas Həşim Məmmədov və siyasi şərhçi Aqşin Kərimovun Zəfər Günü və Cənubi Qafqaz regionunda yaranmış yeni reallıq barədə analitik məqaləsi yerləşdirilib.

# Zəfər Günü Tehranda təntənəli şəkildə qeyd olunub

***Noyabrın 8-də Tehrandakı "Espinas" otelində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyi tərəfindən 8 Noyabr - Zəfər Günü ilə bağlı rəsmi qəbul təşkil olunub.***




Tədbirdə İran Xarici İşlər Nazirliyinin və digər dövlət qurumlarının rəsmi şəxsləri, xarici ölkələrin İrandakı səfirləri, hərbi attaşeləri və diplomatları, ziyalılar, sənət adamları, Tehranda yaşayan azərbaycanlılar, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, tədbirdən öncə səfirliyimizin əməkdaşlarının övladları tərəfindən çəkilən rəsmlərdən ibarət "Şanlı Qələbəmiz" mövzusunda təşkil edilmiş sərgiyə baxış keçirilib.

Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Dövlət himnlərinin səsləndirilməsi başlanan rəsmi qəbulda Azərbaycanın şanlı qələbəsini əks etdirən videoçarx nümayiş olunub.

Tədbir iştirakçılarını salamlayan Azərbaycanın İrandakı səfiri Əli Əlizadə 44 günlük Vətən müharibəsinin hər bir gününün şanlı tarix olduğunu bildirib. Səfir 30 il ərzində Azərbaycanın bu münaqişə ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırdığını, məsələnin BMT-nin qətnamələri və beynəlxalq hüququn prinsipləri əsasında həllinə çalışdığını, lakin təcavüzkar Ermənistanın münaqişənin sülh yolu ilə həllinə heç zaman maraqlı olmadığını vurğulayıb. Beynəlxalq birliyin hər hansı bir ciddi təzyiqi, sanksiyaları ilə qarşılaşmayan təcavüzkar Ermənistanın son illər daha da azğınlaşdığını və təxribatlarını davam etdirərək sonda Azərbaycana qarşı hücuma keçdiyini bildirən səfir Əli Əlizadə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə rəşadətli Azərbaycan Ordusunun Ermənistanın yeni torpaqları işğal etmək niyyəti və arzularını puç etdiyini qeyd edib.

Səfir Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və müdrik rəhbərliyi, xalqımızın möhkəm iradəsi və birliyi, qəhrəman şəhidlərimizin fədakarlığı, müzəffər ordumuzun əzmi, peşəkarlığı və şücaəti hesabına təcavüzkar Ermənistanın təslim olmağa məcbur edildiyini və Azərbaycanın öz əzəli torpaqlarını işğaldan azad etdiyini diqqətə çatdırıb. Əli Əlizadə Azərbaycanın şanlı qələbəsinin ədalətin və beynəlxalq hüququn zəfəri olduğunu, 30 il sürən uzunmüddətli işğala, təcavüzə və ədalətsizliyə son qoyulduğunu, BMT qətnamələrinin Azərbaycanın qətiyyətli addımları və özünümüdafiə hüququ sayəsində icra edildiyini bildirib.

Hazırda işğaldan azad edilmiş torpaqlarda sürətli quruculuq və bərpa işlərinin aparıldığını vurğulayan səfir Əli Əlizadə Azərbaycanın beynəlxalq hüquqa, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı prinsiplərinə ciddi riayət edilməsi əsasında Ermənistanla münasibətləri normallaşdırmağa hazır olduğunu vurğulayıb.

Zəfər Gününün Azərbaycan xalqı üçün əlamətdar və tarixi gün olduğunu bildirən Əli Əlizadə, bu günün İranda qeyd olunmasının da xüsusi əhəmiyyət kəsb etdiyini və İranın yaxın qonşu ölkə olaraq Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini qeyd edib, Zəfər Günü münasibətilə təbriklərə görə İran Xarici İşlər Nazirliyi və Hökumətinə təşəkkürlərini çatdırıb.

# "10 noyabr tarixli bəyanatla Azərbaycan dünya tarixinə düşdü"



EKSPERT RƏYİ

"10 noyabr 2020-ci il tarixində üçtərəfli bəyanatın imzalanmasına gətirib çıxaran yol 44 günlük Vətən müharibəsi ilə kifayətlənmir desək, heç də yanılmarıq. Belə ki, Ermənistanın cənab Prezident İlham Əliyevin yürütdüyü siyasət, Azərbaycan xalqının əzmi, Şanlı Azərbaycan Ordusunun qüdrəti sayəsində diz çökdürülüb kapitulyasiya aktına imza atması istiqamətində illər ərzində hər bir cinahda əməli işlər həyata keçirildi. Əsas səbəb Ermənistanın işğal siyasəti, bu işğalı rəsmiləşdirən BMT TŞ-nin dörd qətnaməsinin icra edilməməsi, ATƏT-in Minsk qrupunun birmənalı olaraq fəaliyyətsizliyi, bunlar azmış kimi müharibə getdiyi zaman Ermənistanın bütün müharibə qanunlarını heçə sayaraq Gəncə, Bərdə, Tərtər terrorunu törətməsi və daha neçə-neçə haqsız, qeyri-qanuni addımları idi. Mahiyyət etibarilə Ermənistanın bütün bu davranışlarının nəticəsi olaraq Azərbaycan onu kapitulyasiya aktına imza atmağa məcbur etdi". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

Ekspertin sözlərinə görə, illər ərzində Azərbaycan xalqı bir an belə öz torpaqlarını unutmadı: "Cənab Prezident İlham Əliyev ən ali kürsülərdən Azərbaycan həqiqətlərini dünyanın nəzərinə çatdırır, nüfuzlu konfranslarda, görüşlərdə, panellərdə Ermənistanın əsassız arqumentlərini tarixi faktlara və beynəlxalq hüquqa söykənərək çürüdür, nəticə etibarilə bütün dünyaya Qarabağın məhz Azərbaycana məxsus olması faktını yorulmadan, usanmadan, qətiyyətlə çatdırırdı. "Yalan ayaq tutar yeriməz". 44 gün ərzində Azərbaycan dövləti, xalqı və ordusu birləşərək o qədər möhtəşəm və nəticəyönümlü bir iş ərsəyə gətirdi ki, biz Ermənistanın yalanlarına ayaq tutmağa belə icazə vermədik. Döyüş cəbhəsində, diplomatik masada, informasiya məkanında dinindən, dilindən, etnik mənşəyindən, sosial kateqoriyasından asılı olmadan hər kəs bu qələbəni yaşamaq üçün gecə-gündüz çalışırdı. Nəhayət, Şuşanın işğaldan azad olunması ilə düşmən ağ bayraq qaldırıb, təslim olmağa məcbur qaldı. Bu, cənab Prezident İlham Əliyevin məntiqli diplomatiyasının, düşünülmüş siyasətinin, Vətən, torpaq sevdasının, yorulmaz fəaliyyətinin nəticəsi idi. Dövlət başçımız elə bir incə siyasət yürütdü ki, Kəlbəcər, Ağdam, Laçın bir güllə belə atılmadan, bir şəhid belə verilmədən düşmən tapdağından azad olundu. Bu amilin özü cənab İlham Əliyevin Prezident kimi xalqına, Ali Baş Komandan kimi əsgər və zabitinə verdiyi dəyəri idi ki, biz insan itkisi olmadan bu nəticəni əldə edək. Məhz bu amilin özü xalq tərəfindən də böyük sevinclə qarşılandı, olduqca təqdir olundu".

Ş.Həsənova vurğulayıb ki, 10 noyabr tarixli bəyanat sadəcə işğal siyasətinə son qoyan bir sənəd deyil, bu tarixi sənəd həm də Zəngəzur dəhlizinin açılmasına şərait yaradan, vaxtilə türk dünyası arasında süni əngəllərin qurulmasına hesablanmış addımların bu gün aradan qaldırılmasıdır: "Əsas məsələ ondan ibarətdir ki, bu bəyanat birmənalı olaraq Ermənistanın kapitulyasiyasıdır. Bu mühüm sənədlə bütün dünya sadəcə Azərbaycanı qalib, Ermənistanı isə məğlub ölkə kimi tanımadı. Sənəd eyni zamanda yalan faktlar, arqumentlər, işğal siyasəti üzərində qurulan bir siyasət üzərində təntənə ilə zəfər çalmağın, tarixi faktların yerini tapmasının, haqqın və ədalətin bərqərar olunması istiqamətində dünyanın hərb və siyasi tarixində mühüm bir presedent kimi çıxış edir. Bununla da Azərbaycan öz adını dünyanın siyasi, diplomatiya, hərb tarixinə yazdırdı".

***Aysel Məmmədova***

# Siçan deşiyi axtaran dabanyalayan "yan"ların...



**RƏFİQƏ**

30 il idi ki, Qarabağ dərdimizdən yazırdıq. Fikirləşirdim ki, nə qədər də Qarabağımızın həsrətinə dözmək olar? Ancaq bütün dünya dövlət siyasətçilərinin həsəd apardığı dövlətimizin Liderinin son 17 il prezidentlik fəaliyyəti bir daha göstərdi ki, Azərbaycan xalqının güvəndiyi xalq-iqtidar birliyinin və dəmirdən də polad gücə malik olan Güclü Müzəffər Ordusunun əsgər və zabitlərinin Sərkərdəsi İlham Əliyev bu məsələnin sülh yolu həll olunmasına çalışdı və bu gün də bu yoldadır.

Ancaq "kor atının nalbəndi olan", küçələrdə qışqıra-qışqıra bədbəxt erməni xalqını boş-boş vədləri ələ alaraq hakimiyyətə yiyələndikdən sonra qara günlərini daha da qaranlıq edən sərxoş, təlxək Nikol Paşinyan kimilərə etibar edəndə sonu da belə olmalı idi. Bu təlxək Nikol oturub-oturub fikirləşdi ki, yenə də sərsəm bəyanatlarla, etdiyi kor-koranə təxribatları ilə bəlkə əməllərini ört-basdır etdi. Ancaq hər dəfə atdığı sərsəm addımlarının və təxribatlarının qarşısına özləri dediyi kimi "Azərbaycanın əsgərləri adamın üstünə canavar kimi hücum edir"i görəndə Paşinyan kimi təlxək və alçağın feylinə inandıqlarına peşman oldular. Ancaq gec idi. Artıq Ordumuz erməninin qorxaq, şərəfsiz "ordusunu" iti qovan kimi qovmaqla yanaşı, leşləri, başsız qalmış papaqlar, papaqsız qalmış düşmən başları ortada qaldı və hələ də qalmaqdadır. Çünki tarixən erməni yüz illərdir ki, quyruqlarını qısaraq hürən qorxaq it kimi onun-bunun qoltuğuna sığınaraq yerlərini isitdikdən sonra silahsız, əliyalın və dinc insanlara qarşı "qəhrəmanlıqlar" göstərmək istəyiblər. Qarşılarında güclü birisi çıxdıqda isə quyruqlarını qısaraq qaçıblar. Bu xalq tək Azərbaycan xalqına qarşı deyil, bütün xalqlara qarşı nankor, xəyanətkar olublar. Hətta zaman-zaman iplərini əllərində saxlayan rus xalqına və dövlətinə qarşı da dikləniblər və hər dəfə də ağır şəkildə cəzalandırılıblar. Çünk Allah-Təala tərəfindən lənətlənmişlərdir və lənətləndikləri üçün də xain və quduz olublar. Sentyabrın 27-də quduzlaşmış həmin bu işğalçı Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutsalar da, Milli Ordumuzun qətiyyəti sayəsində yerində otuzduruldu, bu gün də otuzdurulmaqdadır. Çünki Azərbaycan haqq yolundadır. Ermənistan işğalçıdır və 10 noyabr üçtərəfli bəyanatla haqq, ədalət, ərazi bütövlüyümüz bərpa olundu, status-kvonu dəyişdi, Ermənistanın hərbi kapitulyasiyası oldu. Bütün dünya Azərbaycan xalqının birliyini gördü.

**"Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız"**

Bəli, Ali Baş Komandanımızın dediyi kimi: "Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. İndi onun dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!".

Bəli, lap yerində əcəb edib! Quduzlaşa-quduzlaşa olmayan "papaqlarını", şalvarlarını, hətta arvad-uşaqlarını belə qoyub qaçan "yan"ların papaqları həmişə belə başsız, şalvarsız qalıb.

# Gənc memardan unikal addım - Qarabağ Tarixi Muzeyinin layihəsini hazırladı

Gənc memar Seymur Baxışlı 8 Noyabr Qarabağ Tarixi Muzeyinin layihəsini hazırlayıb. Qeyd edək ki, belə bir muzeyin yaradılması ilə bağlı ictimaiyyət nümayəndələri tərəfinən vaxtaşırı təkliflər səsləndirilir. S.Baxışlı isə bu təkliflərdən ruhlanaraq, memarlıq məharətini səfərbər edərək göz oxşayan layihə ortaya qoyub.

"Müzəffər Azərbaycan Ordusunun və Ali Baş Komandanımızın səyləri ilə işğal altında olan torpaqlarımızı azad etdik. İndi biz hər yeri bərpa edib, hər şeyi daha mükəmməl inşa edəcəyik. Bir memar olaraq bu müqəddəs torpaqlarda layihə inşa etmək mənim üçün böyük qürur hissidir. Tariximizdə qürurlu hadisələr çoxdur, müasir tariximizin ən qürurlu hadisəsi isə 8 Noyabr Zəfər günüdür. Məhz buna görə muzeyin konsepti 8 rəqəminin formasındadır"- deyə gənc memar açıqlamasında bildirib.



***Vahid Ömərov, f.ü.f.d***

# Qadınla kişinin dostluğu mümkündür?

ARAŞDIRMA

***Dostluq anlayışı insanların yaxın hiss etdiyi, güvəndiyi və emosional olaraq başa düşüldüyü hər bir münasibətdə başlayır. Cəmiyyətimizdə qadın və kişiyə qoyulan bəzi qaydalara görə, dostluqda qadın və kişi asanlıqla bir-birinə doğru addım ata bilmir. Çünki hər ikisinin bağlı olduğu həyat yoldaşları, ailəsi və ya sevgililəri bu məsələyə çox isti baxmırlar. Hətta buna müsbət baxılmır. Halbuki savadlı və bu anlayışları aşmış qrupda olan qadın və kişi arasında möhkəm dostluqlar görmək olar. Qadınların qadınlara, kişilərin kişilərə qarşı inamsızlığı artdıqca, əks cinsdən yaxşı dostlar axtarmağa meyil də artdı. Bu, son zamanlar özünü büruzə verir.***

Təbii ki, kişi və qadın dost ola bilər. Kişi və qadının bir yerdə olması üçün sevgiyə ehtiyac yoxdur. Təəssüf ki, cəmiyyətdə hələ də bununla bağlı uyğunsuzluqlar var. Bəzi dairələrdə hələ də qəbul olunmur ki, qadın kişi ilə dost ola bilər, bir araya gəlib söhbət edə bilər. Bu perspektiv dəyişdirilməlidir. Kişilər və qadınlar birlikdə çalışacaqlar, söhbət edəcəklər, bu, təbii qəbul edilməlidir. Evliliklərdə də belədir. Kişi və qadını yaxşı tanımağın yolu budur. Evliliklərdə ən böyük problem qadınla kişinin bir-birini yaxşı tanımamasıdır. Evlilikdə çətinliklərin öhdəsindən gəlməyin yolu bir-birimizi tanımaq və anlamaqdan keçir. Möhkəm dostluqlar bəzən möhkəm evliliklərin qurulmasına səbəb olur.

Bir insanın digər insanlarla danışması, məlumat mübadiləsi aparması, bir yerdə olması, xüsusən də, hobbi və ya həzz səviyyəsində ola bilər. Bu münasibət dostluğa qədər gedə bilər. Amma emosional yaxınlıq ayrıdır, mübahisəli məsələdir. Qərəzli olmayın.

Dostluq cinsi ayrı-seçkilik olmadan qurula bilər. Bir sirdaş olmaq, bir çox məsələni birlikdə düşünmək, bunların hamısında təbii ki, cinsi ayrı-seçkilik yoxdur. Qadın-kişi dostluğu deyildikdə, sosioloji mənada dostluq yerinə cinsi faktorlar yada düşür.

Mən inanıram ki, qadın və kişi dost ola bilər, amma dost qala biləcəklərinə inanmıram. Dostluğun təşəbbüskarı qadındır, onu pozan isə kişidir. Yəni, dostluqda aşiq olma problemi əsasən kişilər tərəfindən baş verir. Qadın istəmədikcə kişi onunla dost ola bilməz. Amma kişi istəməsə belə, qadın istəyirsə, onu dost edir. Dostluqda qadınlar bu vəziyyəti dost qavrayışı ilə idarə edə, kişilər isə çox yaxınlaşa bilirlər. Yəni qadın yaxınlığı dostluq hesab etdiyi halda, kişi çaş-baş qala bilər. Bir sözlə, möhkəm şəxsiyyətlər dostluq yarada bilər.

Artıq qadın həmrəyliyi deyə bir şeyin olmasına inanmıram. Yəni qadınla qadının dostluğu pozulub. Kişilərin dostluqları pul tapana qədər, qadınların dostluqları əri tapana qədər başladı. Təbii ki, bu hər kəsə aid deyil. Amma bu, gözümüzün qabağında olan reallıqdır. Əvvəlcə insan olmağın fəziləti, sonra dostluğun əhəmiyyəti dərk edilərsə, kişi ilə qadın çox yaxşı dost olurlar.

Bəzi valideynlər qızları bir az böyüyən kimi onu oğlanlardan, oğlan dostlarından uzaqlaşdırır. Məsələn, deyirlər ki, "yekə qızsan, nə gedib oğlanlarla oynayırsan?!", "artıq böyümüsən oğlanlarla nə işin var" və s. Belə ifadələrin nə qədərini sadalamaq olar. Bu tip ifadələri yəqin ki, çoxumuz eşitmişik. Bir az sərt və ya yumuşaq forada fərq etməz. Amma eşitmişik.



Niyə o məsum, təmiz beyinlərə "o qarşı cinsdir, səndən biri deyil" ideologiyası yeridilir?

Hətta elə ailələr var ki, orada qızlar öz xalaoğluları ilə belə "salam", "sağ ol" xaricində dialoq qura bilmirlər. Sizcə oğlanla qız arasında erkən yaşlarında bu qədər səddin qoyulması düzgündür? Əgər sədd qoyulmalıdırsa, üsulu nədir? SİA məsələ ilə bağlı araşdırma apararaq sosioloq və psixoloqların bu barədə fikirlərini öyrənib.

Məsələ ilə bağlı **sosioloq Rəşad Əsgərov** bu cür münasibət bildirib: "Cəmiyyətdə oğlanlar və











qızlar arasında kəskin sədd çəkmək, uçurum yaratmaq heç də qəbul olunmur. Bu hal, adətən, Şərq ölkələrində olur ki, burada da rejimlər hökm sürür. Bu rejimlərin özünəməxsus xüsusiyyət odur ki, oğlan və qız arasındakı fərqlər ifrat dərəcədə özünü göstərməlidir. Azərbaycanda isə belə hallar fərdi ailələrdə baş verir. Bu da daha çox onunla bağlıdır ki, oğlanlar cəmiyyətdə kişi kimi, qızlar da zərif halda böyüməlidirlər. Buna görə də oğlan uşaqlarının oğlanlarla oynaması, onlarla əlaqələrinə geniş yer verməsi belə izah olunur ki, onlar cəmiyyətdə kişi kimi, daha dözümlü, daha möhkəm olurlar. Bu zaman onlarda kişilik keyfiyyəti daha yüksək olur. Qızlarla daha yaxın olduqda, onlarda qızlara xas olan bəzi xüsusiyyətlər meydana çıxır. Əks göstərici olaraq qızların da qızlarla oynamasına və yaxud da müəyyən qədər onlarla əlaqələrinin daha geniş olmasına üstünlük verilir ki, bu da qızlara malik olan incə, nəcib xüsusiyyətlərin formalaşmasına xidmət edir.

Xüsusilə də, Azərbaycan cəmiyyətində, əsasən də, müxtəlif regionlarda yetkinlik yaşına çatmış qızların, ümumiyyətlə, oğlan uşaqları ilə oynamasına və yaxud da oturub-durmasına icazə verilmir. Həmçinin, bu, valideynlər tərəfindən birmənalı qarşılanmır. Bu, onunla əlaqədardır ki, artıq ailə qurmağa hazırlaşan, yetkinlik yaşında olan qızların oğlan uşaqları ilə oynaması, əlaqədə olması onların gələcək ailə həyatına mənfi təsir edəcək. Bu təsir heç də birmənalı deyil. Bu, həm müsbət, həm də mənfi təsir ola bilər. Mənfi odur ki, oğlan uşaqları tərəfindən onların ünvanına, onların haqqında cəmiyyətə dezinformasiyalar yayıla bilər ki, bu da gələcəkdə onların ailə qurmasında müəyyən qədər problemlər yarada bilər.

Ona görə də Azərbaycanda Avropa cəmiyyəti ilə müqayisədə bu məsələdə ailə dəyərləri, ailə institutu nəzərə alınaraq, qız uşaqlarının ancaq qohum əqrəbası ilə, müəyyən yaşa çatdıqdan sonra isə, ancaq öz ailə üzvləri ilə ünsiyyət qurulmasına icazə verilir. Xüsusilə də qızların 12-13 yaşından etibarən ailələr oğlanlarla dostluğuna icazə vermirlər".

**Psixoloq Vüsalə Əmiraslanova** isə məsələnin psixoloji yanlarına toxunub: "Ümumiyyətlə, Qurani-Kərimdə də qeyd olunub ki, övladlarınızın 10 yaşından otaqlarını ayırın, artıq onlar arasındakı məhdudiyyətləri, həddi göstərin. Əslində, Qurani-Kərimdə bu yazılıbsa, dini cəhətdən hardasa məntiqlidir ki, 10 yaşından sonra artıq cinsi yetişkənlik başlayır və yeniyetməlik dövrünə keçirik. Ona görə də uşaqlar artıq öz cinslərini tanıyırlar, bir-birinə qarşı maraq artır, maraq yaranır. Onlara düzgün şəkildə başa salmaq lazımdır ki, nəyə görə oğlandan ayrı yatmalısan, oğlanla bir otaqda yata bilməzsən.

Mən, oğlanlarla qızların oynamamasına çıxıram, yəni, niyə də oynamamalıdırlar ki, əslində, oynamalıdırlar ki, bir-birini tanısınlar, qız oğlanın, oğlan da qızın psixologiyasını öyrənsin. Elə qızlar var ki, ümumiyyətlə, evlərində oğlan yoxdur. Ona görə də qardaş kimi, yaxın bir dost kimi yanaşırlar. Mən düşünmürəm ki, onları tamamilə bir-birindən ayırmalıdırlar və yaxud da qızı utandırmalıdırlar.

Ümumiyyətlə, camaatın içində "yekə qızsan, niyə gedib oğlanlarla oynayırsan?" kimi fikirlər yanlışdır. Əslində, qızı əksinə hərəkət etməyə sövq edir. Mən düşünürəm ki, əslində, oğlanlarla qızlar arasında məktəbdə də, universitetdə də daim qarşılıqlı bir iş aparılmalıdır ki, onlar həm komanda şəklində işləməyi öyrənsinlər, həm hisslərini bölüşsünlər, həm dostluq münasibətləri olsun ki, gələcəkdə qızlarımız özlərinə həyat yoldaşı seçəndə səhv, yanlış seçməsinlər, həmçinin də, oğlanlar yanlış bir qızları seçməsinlər. Evdə bacı-qardaş varsa, 10 yaşından sonra onların yataqlarını ayırmaq daha məqsədəuyğundur".

***Ayşən Vəli***

# 8 Noyabr Zəfər Günü bölgələrdə böyük coşqu ilə qeyd olunub

## Oğuzda 8 Noyabr Zəfər Günü münasibətilə abidə bulaq kompleksinin açılışı olub





8 Noyabr Zəfər günü münasibətilə Oğuzun Xaçmaz kəndində Vətən müharibəsi qəhrəmanı İbrahimi Nail Nəriman oğlu və şəhid İsazadə Səfa Əmirxan oğlunun adına abidə bulaq kompleksinin açılış mərasimi olub.

Mərasimdə Oğuz rayon icra hakimiyyətinin başçısı Eyvaz Qurbanov, YAP Oğuz rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Saleh Məhərrəmov, hüquq mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, Dövlət Sərhəd Xidmətinin bir qurup hərbi qulluqçuları, təhsil mədəniyyət işçiləri məktəblilər, ictimaiyyət nümayəndələri və hər iki şəhidin ailə üzvləri iştirak ediblər. İlk öncə şəhidlərin ruhu 1 dəqiqəlik sükutla yad edilib.

İlk olaraq, Oğuz rayon icra hakimiyyətinin başçısı Eyvaz Qurbanov çıxış edərək, 8 Noyabr Zəfər günü xalqımızın böyük şərəf tarixi olduğunu bildirib. Prezident, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyev tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğını tədbir iştirakçılarının diqqətinə çatdırıb. 44 günlük müharibədə Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlıq və düşmən üzərindəki qələbəsi haqqında tədbir iştirakçıkarına məlumat verib.

Daha sonra məkəblilərin hazırladığı bədii kompozisiyada Vətən müharibəsi şəhidlərinə həsr edilmiş şeir və qəhrəmanlıq mövzularında çıxışlar dinlənilib. Açılış mərasimində Vətən Müharibəsi Qəhrəmanı Nail İbrahimlinin anası Aqubət İbrahimova, şəhid İsazadə Səfanın atası İsayev Əmirxan, şəhid Rəvan Lətifovun anası Gültəkin Lətifova və digər şəhid ailələri çıxış edərək, gəncləri və məktəbliləri vətənpərvər ruhda yetişməyə çağırıblar. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə, ölkə Prezidenti Cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və rayon rəhbərliyinə öz minnətdarlıqlarını bildiriblər.

**ZÜMRÜD BAYRAMOVA**

## YAP Qobustan rayon təşkilatının fəalları Bulaq Abidə Kompleksində olublar







Qobustan rayon İcra Hakimiyyətinin rəhbərliyi, Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının, hüquq-mühafizə orqanlarının rəhbərliyi və rayon ictimaiyyətinin nümayəndələri, Qobustan şəhərində "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuş Vətən müharibəsi qəhrəmanı Şəhid Vəliyev Elyar Arif oğlunun xatirəsinə inşa olunmuş abidə-bulaq kompleksinin açılışında iştirak etmişlər, önünə gül dəstələri düzərək əziz xatirəsini böyük ehtiramla yad etmişlər. Əvvəlcə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edənlər Şəhidimizin keçdiyi döyüş yolundan, göstərdiyi qəhrəmanlıqlardan danışaraq Vətən müharibəsindəki Zəfəri ölkəmizin çoxəsrlik tarixinə yazılan şərəfli səhifə, qəhrəmanlıq salnaməsi kimi səciyyələndirib, düşmən üzərində qazanılmış böyük hərbi nailiyyətin iştirakçılarının daima saygı və iftixarla xatırlanacağını bildirmişlər. Şəhidin atası Vəliyev Arif göstərilən diqqət və qayğıya görə Ölkə Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse Prezident Mehriban xanım Əliyevaya rəşadətli Azərbaycan ordusuna təşəkkür və minnətdarlığını bildirmişdir.

**Rəfiqə**

## Zəfər günü Qusarda böyük coşqu ilə qeyd olunub



8 noyabr Zəfər Günü Qusar şəhərində müxtəlif mədəni kütləvi tədbirlər keçirilib. Səhər saatlarında şəhərin general Mahmud Əbilovun adını daşıyan meydandan başlayaraq, bütün şəhərin küçələri boyunca dövlət bayraqları ilə avtomobillərin yürüşü baş tutub. Rayon rəhbərliyi və idarə müəssisələrinin rəhbərləri tərəfindən Ümummilli Lider Heydər Əliyevin abidəsi və rayonun Şəhidlər Xiyabanı ziyarət olunub.



Bayram tədbiri şəhərin mərkəzi meydanında davam etdirilib. Tədbirdə çıxış edən Qusar rayon icra hakimiyyətinin başçısı Şair Alxasov tədbir iştirakçılarını Zəfər bayramı münasibətilə təbrik edib. Sonra məktəblilərin əl işlərindən ibarət sərgiyə baxış keçirilib. Bayram izdihamı geniş konsert proqramı ilə davam etdirilib. Həmin gün şəhərdə yeni salınacaq Zəfər parkında ağaclar əkilib.

**Nəzakət BAYRAMOVA**

## Zaqatalada Zəfər Günü münasibətilə silsilə tədbirlər keçirilib





8 noyabr Zəfər Günü münasibətilə Zaqatala rayonunda bir sıra tədbirlər keçirilib. İlk olaraq, dövlətimizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimiz ziyarət olunub, məzarları önünə gül-çiçək dəstəkləri düzərək, əziz xatirələri böyük ehtiramla yad olunub. Sonra Zəfər Gününə həsr olunmuş ağacəkmə kampaniyası keçirilib. Qələbəmizin bir ilinin tamam olması ilə əlaqədar olaraq Zaqatala rayon icra hakimiyyətinin



təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsində və Birinci Qarabağ döyüşləri zamanı şəhadətə qovuşan şəhidlərimizin əziz xatirəsinə Zəfər yürüşü keçirilib.

Tədbirdə Zaqatala rayon icra hakimiyyətinin rəhbərliyi, YAP Zaqatala rayon təşkilatının rəhbərliyi və fəalları, rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları, millət vəkili Kamilə Əliyeva hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Sonda isə Zəfər konserti təşkil olunub.

**ZÜMRÜD BAYRAMOVA**

# Nikolay Silayev: “Siyasətdə əbədi dostluq və ya əbədi düşmənçilik yoxdur”



***Möskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) Beynəlxalq Araşdırmalar Mərkəzinin aparıcı elmi işçisi Nikolay Silayev "Caliber" analitik mərkəzinə müsahibəsində regiuonda yaranmış güc balansı ilə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Ekspert dairələrində belə bir fikir var ki, "Rusiya sülhməramlılarına münaqişə zonasında qaldıqları müddət üçün dəqiq və detallı mandat lazımdır". Bu fikirlə razısınızmı?***

- Bəli, bu məsələ müzakirə olunur. Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 10 noyabr 2020-ci il tarixli bəyanatında sülhməramlıların sayı, silah-sursat və qalma müddətindən bəhs edilib. Onların məsuliyyətinin coğrafi ərazisi ümumi şəkildə müəyyən edilmiş və bəyanat imzalandıqdan sonra iş qaydasında dəqiqləşdirilmişdir. Bununla yanaşı, həm Azərbaycanın, həm də Ermənistanın mətbuatında zaman-zaman sülhməramlıların konkret səlahiyyətləri, onların vəzifələri ilə bağlı müzakirələr gedir. Bəzən bu məsələlərdə əminliyin olmaması gərginlik yaradır. Sülhməramlılar üçün təfərrüatlı mandat bunun qarşısını ala bilərdi.

Ümumiyyətlə, hər iki tərəf sülhməramlılara güvənir və bəzən yaranan anlaşılmazlıqları aradan qaldırmaq olar. Amma razılaşdırılmış mandatın ortaya çıxması vəziyyəti daha qəti, şəffaf və proqnozlaşdırıla bilən edəcək.

***- Tarixin göstərdiyi kimi, bütün bu "planlar" və "prinsiplər" Ermənistan-Azərbaycan qarşıdurmasının həlli üçün işləmir. Bir tərəfin şərtləri digər tərəf üçün qəbuledilməzdir. Bəlkə həll formulu və ya ən azı bu istiqamətdə bütün tərəflərə uyğun olacaq ilk addımları bilirsiniz?***

- ”Planlar” və ”prinsiplər” özözünə işləyə bilməz. İnsanlar işləyir, ya onları qəbul edir və beləliklə, öhdəlik götürür, ya da qəbul etmir. Həqiqətən də bir çox məsələlərdə Azərbaycan və Ermənistanın mövqeləri bir-birini istisna edir. Düşünmürəm ki, müxtəlif ölkələrin ən yaxşı diplomatlarının artıq təklif etdiyi və təklif etməkdə davam etdiyindən sonra mən heç bir yeni formula təklif edə bilərəm. Ola bilsin ki, indi ümumən ”formulalar”ın deyil, dialoqun özünün mümkünlüyünü tədricən və ehtiyatla bərpa etməyin vaxtıdır.

O da mümkündür ki, hər kəsə uyğun bir həll yoxdur. Amma bu o demək deyil ki, danışıqlar faydasızdır. Əksinə. Beynəlxalq münasibətlərin çoxəsrlik təcrübəsi göstərir ki, müəyyən situasiyada bütün iştirakçılara uyğun olan həllər işlərin böyük əksəriyyətində qeyri-mümkündür. Və bu cür həllər işləyir və davamlıdır, təxminən eyni dərəcədə hər kəsə uyğun gəlmir.

Və daha bir şey - beynəlxalq siyasətdə əbədi düşmənçilik yoxdur. Əbədi dostluq da yoxdur.

***- Ötənilki müharibədən sonra Rusiya ilə Azərbaycan arasında münasibətlər dəyişibmi?***

- Mütləq dəyişilib. Azərbaycan xaricdən gələn etirazlara baxmayaraq, özünü hərbi cəhətdən güclü, bu qüvvədən istifadə etməyə hazır ölkə kimi göstərdi. Azərbaycanla Türkiyə arasında münasibətlər yeni səviyyəyə çatıb: onların ittifaqı müharibə ilə möhürlənib. Rusiyadakı bir çox müşahidəçilər belə nəticəyə gəliblər ki, Türkiyə daha əvvəl Rusiyanın hərbi cəhətdən üstünlük təşkil etdiyi regionda Rusiyaya meydan oxuyub.

Digər tərəfdən, Azərbaycanla Rusiya arasında münasibətlərdə təhlükəsizlik məsələlərinə, Azərbaycan-Ermənistan münasibətlərinə, Rusiyanın sülhməramlılığına aid olan geniş yeni gündəm var. Bütün bunlar yeni və dinamik vəziyyət yaradır. Moskva və Bakı münasibətlərin inkişafında maraqlıdır və bu, ən yüksək səviyyədə siyasi prioritetdir.

***- Rusiya-Azərbaycan-Türkiyə formatına necə baxırsınız? Bu formatın effektivliyi və perspektivləri nədən ibarətdir?***

- Hələlik bu formatdan yalnız hipotetik danışmaq olar. Baxmayaraq ki, əslində əməkdaşlıq var: Azərbaycan ərazisində birgə monitorinq mərkəzi fəaliyyət göstərir. Əməkdaşlıq səviyyəsinin artıb-artmayacağı açıq sualdır. Amma istənilən halda Cənubi Qafqaz yaxın illərdə Rusiya-Türkiyə gündəmində mühüm yer tutacaq və Azərbaycan hər iki ölkənin regional siyasətində mühüm rol oynayacaq.

***Tərcümə - Elçin bayram***

# “Ermənistan yekun sülh sazişini imzalamağa məcbur ediləcək”

***"Ötən ilin noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan arasında birgə imzalanan bəyanatdan artıq bir il ötür. Hər şeydən öncə onu qeyd etmək lazımdır ki, birgə bəyanatın imzalanması 44 günlük vətən müharibəsində Azərbaycanın inamlı zəfərinin ifadəsi idi. Birgə bəyanatın müddəaları Azərbaycanın diqtəsi ilə formalaşdı. Bunu sübut edən başlıca məqamlar ondan ibarətdir ki, Ermənistan bu bəyanatı imzalamaqla öz üzərinə öhdəliklər götürmüş oldu". Bunu SİA-ya açıqlamasında deputat Elşad Mirbəşiroğlu deyib.***



O, qeyd edib ki, Ağdam, Kəlbəcər, Laçın döyüşsüz Ermənistan tərəfindən təhvil verildi. Bu hesab edirəm ki, qələbəmizin növbəti tarixi mərhələsi idi. Ayrıca olaraq xüsusi qeyd etmək lazımdır ki, birgə bəyanatın doqquzuncu maddəsində Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin yaradılması məsələsi öz əksini tapmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin də vurğuladığı kimi bu onun təkidi nəticəsində baş verdi. Yəni, Azərbaycan 44 günlük Vətən müharibəsində özünün güc mövqeyini formalaşdırmaqla birgə bəyanatın müddəalarının öz maraqlarına uyğun olmasına nail oldu. Naxçıvanla Azərbaycan arasında nəqliyyat əlaqəsinin yaradılması, təbii ki, gələcəkdə böyük bir coğrafiyada effektiv nəqliyyat infrastrukturu sisteminin əsasını qoymaq imkanını verəcəkdir.

Elşad Mirbəşiroğlu bu barədə fikirlərini belə izah edib: ”44 günlük Vətən müharibəsindən sonra Ermənistanın birgə bəyanata imza atması Ermənistan cəmiyyətində birmənalı olaraq cinayətkar dövlətin ağır məğlubiyyəti kimi qiymətləndirildi. 10 noyabr tarixində birgə bəyanatının imzalanmasından bir gün sonra Ermənistanı kütləvi ixtişaşlar bürüdü. Etirazçılar baş nazirin iqamətgahına, parlamentə hücum etdilər. Paşinyanın istefasını tələb etdilər. Paşinyan, yenə də, 2018-ci ildə olduğu kimi gizlənərək ”Facebook” qəhrəmanına çevrildi. Daha doğrusu, ”Facebook” baş naziri oldu. Buna məcbur qaldı. Ermənistandakı dərin siyasi böhran, Azərbaycanın qələbəsinin möhtəşəmliyini sübut edirdi. Bu həm də birgə bəyanatın Ermənistan üçün nə qədər ağrılı məğlubiyyət sənədi olduğunu göstərirdi. Paşinyan etiraf edərək qeyd etmişdir ki, birgə bəyanata imza atmaq onun üçün olduqca ağır idi. Lakin başqa çıxış yolu yox idi. Ermənistana çıxış yolu qoymayan, təbii ki, 44 günlük Vətən müharibəsində öz torpaqlarını inamla azad edərək tarixi qələbə çalan Azərbaycan oldu.

Bu baxımdan hesab edirəm ki, 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq, Ermənistanı kapitulasiya aktına imza atmağa məcbur etməklə Azərbaycan özünün dönməz şəkildə güc mövqeyini formalaşdırdı. Bundan sonra cərəyan edən hadisələr də Azərbaycanın ədalətli maraqlarına uyğun olacaq. Azərbaycan işğaldan azad olunmuş ərazilərində sürətlə tikinti quruculuq işləri aparmaqdadır. Regionun nəqliyyat mənzərəsini daha köklü şəkildə dəyişmək imkanına məhz Azərbaycan malikdir. Ermənistan hər vəchlə yekun sülh sənədini imzalamaqdan boyun qaçırır. Azərbaycan isə mütləq Ermənistanın yekun sülh sazişini imzalamağa məcbur edəcək”.

***Turqay Musayev***

# “Təxribatlar Ermənistanın potensial müharibə ocağı olaraq qaldığını göstərir”



***“Zəfərin ildönümü şənlikləri ilə eyni vaxtda Ermənistanın yenidən təxribatlar törətməyə davam etməsi göstərir ki, bu ölkənin xarici siyasətinin və xüsusilə də regional qonşulara münasibətdə aqressiv siyasətinin mahiyyətcə hələ dəyişmədiyini bir daha ortaya qoyur. Ermənistan Zəfər Günü ilə əlaqədar keçirilən tədbirlərlə eyni vaxtda həm keçmiş Dağlıq Qarabağ ərazisində, həm Azərbaycanla sərhəd boyunda ən müxtəlif formalarda təxribat hadisələri törətməkdə davam edib”. Bu fikirləri SİA-ya açıqlamasında ”Bakı Xəbər” qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.***

Ekspertin sözlərinə görə, bütün bunlar Azərbaycan xalqının qələbə sevincindən ruhlanmasını görməyə Ermənistanın nə qədər dözümsüz olduğunu bir daha nümayiş etdirdi: ”Onlar Azərbaycan xalqının nəinki Qarabağ zəfərini, hətta ümumi şəkildə inkişaf və yüksəliş, rifah prosesini görməkdən məmnun deyillər. Ona görə də bütün siyasətlərini Azərbaycan xalqının rifah və sülh içində yaşaması prosesinə mane olmağa yönəldirlər. Bu, Ermənistanın regionda potensial müharibə və gərginlik ocağı olaraq hələ də qaldığını göstərir. Təsəvvür edin ki, Azərbaycanın Zəfər Günü ilə əlaqədar adicə atəşfəşanlıq etməsi erməniləri bu qədər qıcıqlandırırsa, zaman-zaman Azərbaycan xalqının və dövlətinin işğaldan azad edilmiş ərazilərdə yaradacağı cah-cəlalın onları necə aqressivləşdirəcəyini indidən təsəvvür etmək çətin deyil. Yaxın illər ərzində Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında və Ermənistanla sərhəddə yaxın digər işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi inkişafın ən yüksək həddə gəlib çatması və hətta kənardan aydın şəkildə görünən parlaq yaşayış tərzi ermənilərin xuxusunu qaçıracaq və onları hər an Azərbaycana qarşı yeni təxribatlar törətməyə məcbur edəcək”.

A.Quliyev vurğulayıb ki, bütün bunlar təkcə Azərbaycana çağırış deyil: ”Ermənilərin bu gün Zəfər Günü ilə eyni vaxta təsadüf edən təxribatları həm də dünya birliyinə və bölgədə möhkəm sülhün bərqərar olmasını istəyənlərə çağırışdır. Son yaşananlarla erməni xislətinin dəyişmədiyini, hələ də aqressiv bir siyasət daşıyıcısı olduqlarının fərqinə varmaq təkcə Azərbaycanın işi deyil. Bu, dünyanın işinə və probleminə çevrilməlidir. Zəfər Günündə Azərbaycanın keçirdiyi tədbirlər Ermənistan siyasətinin iç üzünü bir daha açıb ortaya qoydu. Yəqin ki, Azərbaycanın Zəfərlə bağlı tədbirləri bununla bitməyəcək. Bəlkə, ölkənin iqtisadi inkişafının daha da güclənməsini təmin edən siyasət bundan sonra da davam etdiriləcək ki, bu da öz növbəsində Ermənistanda yeni aqressiv və təxribatçı hərəkətlər doğuracaq. Azərbaycan dönməz və əbədi inkişaf prosesi içində olduğu müddətcə Azərbaycanın hüzurunu pozmağa cəhd edən təcavüzkar Ermənistan da olacaq”.

***Aysel Məmmədova***

# Qələbənin siyasi müstəvidəki davamı - KAPİTULYASİYA

***Ermənistan tərəfi çox "rəşadətli" adlandırdığı dırnaqarası ordunun, əslində isə terrorçu və işğslçı silahlı birləşmələrin uğursuzluqlarını, sözün əsl mənasında rəşadətli Azərbaycan Ordusunun Şuşanı işğaldan azad etdiyi tarixə qədər yalnız ört-basdır etməyi bacardı, amma Xankəndinin belə təhlükə altında qaldığını dərk etməklə, dərhal diz çökmək qərarına gəldi. Uzaqgörənliyi, qətiyyəti, liderlik keyfiyyətləri ilə bütün dünyada tanınan Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbətrliyi ilə rəşadətli, cəsur Azərbaycan Ordusu nəinki erməni mifini darmadağın etdi, hətta onları ən rəzil bir hala saldı ki, bu rəzalət damğası alınlarına əbədi olaraq həkk olundu.***

TƏHLİL

Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, eləcə də, işğal altında olan torpaqlarımızı azad etmək məqsədi ilə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun sentyabrın 27-dən etibarən başladığı zəfər yürüşü qısa müddətə inanılmaz uğurlar və mükəmməl qələbə ilə tamamlandı. Ən qısa zaman fasiləsində, cəmi 44 gün ərzində erməni silahlı birləşmələri darmadağın edildi, düşmənin müqaviməti tamamilə qırıldı və düşmən çıxılmaz vəziyyətə düşdü. Beləliklə, Ermənistan Azərbaycan qarşısında diz çökmək, kapitulyasiyasını elan etmək məcburiyyətində qaldı. Daha doğrusu buna məcbur edildi və məhz bu, bizim uğurumuz, qələbəmizdir.

Cəmi 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində ümumilikdə, 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edildi və düşmənin ağ bayraq qaldırmaq, kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Bəli, Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Bu, Ermənistanın döyüş meydanında məğlubiyyətini dərk etməsinin, qəbul etməsinin etirafıdır. Məğlubiyyətini qəbul və etiraf edən Ermənistana kapitulyasiya şərtləri ilə razılaşmaqdan başqa çıxış yolu qoyulmadı və Azərbaycan öz torpaqlarını az qala 30 ilə yaxın müddət ərzində işğalda saxlayan düşmənini diz çökdürdü. Diz çökən düşmənin bir sıra əraziləri döyüşsüz, müqavimətsiz belə tərk etməsi özü də çarəsizliyin, məğlubiyyətin əlaməti, təsdiqidir ki, bütün dünya bunun əyani şahidi oldu.

Hərb tarixinə yenilik olaraq düşən bir strategiya tətbiq edən Azərbaycan, ən müasir silahlardan istifadə etməklə, minimum itkilərlə maksimum uğurlu nəticələr əldə edə bildi və qısa müddət ərzində düşmənin bütün hərbi texnikası məhv edildi, canlı qüvvəsi darmadağın edildi. Cəsarətlə deyə bilərik ki, Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Çünki, cəmi 44 gün davam edən bu əməliyyatlar öyrənilir və dünyanın bir sıra hərbi məktəblərində tədris edilir. Etiraf etmək lazımdır ki, yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşanın azad edilməsi əməliyyatı həqiqətən də Azərbaycanın hərb tarixinin ən parlaq səhifəsidir və bu səhifəni hələ də bütün dünya araşdırır. Ona görə ki, Şuşa əməliyyatı heç də ağır artilleriyanın, döyüş maşınlarının, zirehli texnikanın, yaxud müasir silahların gücü ilə deyil, yüksək hərbi peşəkarlıqla və rəşadətli Azərbaycan Ordusunun şücaəti ilə reallaşdı. Şuşa əməliyyatı zamanı Xankəndidə olan hospityallara daşınan erməni yaralılarında ancaq bıçaq və tapança yaralarının olması azərbaycanlı döyüşçülərin,





əsgər və zabitlərimizin, hərbçilərimizin hansı qəhrəmanlıqla döyüşdüyünün isbatıdır, hansıki bunu erməni maraqlarını müdafiə edən xairici mənbələr, kütləvi informasiya vasitələri belə etiraf edirlər.

Hərbi əməliyyatları dayandırmaq üçün Ermənistan və onun havadarları Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərməkdə idisə də buna nail ola, əməliyyatları dayandıra bilmədi. Bir sözlə, bütün dünya erməniliyi, onların havadarları birlikdə cənab Prezidentin, Ali Baş Komandanın iradəsini qıra bilmədi. Ölkə rəhbərimizin əzmini, lderlik keyfiyyətlərini hər kəs gördü və əmin oldu ki, cənab Prezident İlham Əliyev bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etmək iqtidarındadır və heç zaman öz prinsipial mövqeyindən qətiyyən dönən deyil. Təbii ki, buna əmin olan və bunun şahidi olan ermənilərə kapitulyasiya sənədini imzalamaqdan, diz çökməkdən başqa çarə qalmadı ki, bununla da Ermənistan tərəfi məğlubiyyətini rəsmiləşdirən sənədə öz imzasını atdı, azərbaycanlılar haqqında ermənilərin formalaşdırdıqları məğlub xalq sindromu sındırıldı və qalib xalq olduğumuz rəsmi şəkildə, sənədlə etiraf edildi.

Azərbaycan Ordusunun qüdrəti qarşısında tab gətirməyən Ermənistanın rüsvayçı məğlubiyyətə düçar olmasından, bu ölkənin kapitulyasiya aktına imza atmasından düz bir il ötür və məhz bu tarix, yəni, 10 noyabr tarixi bizim üçün böyük önəm daşıyır, olduqca da qiymətli, qürurvericidir. Çünki, Ermənistan faktiki olaraq 10 noyabr axşamı rüsvayçı şəkildə məğlub olduğunu bəyan etdi və həmin ana qədər pafoslu açıqlamaların arxasında gizlənən, dırnaqarası "qələbə" iddiaları səsləndirən erməni rəsmiləri artıq çarənin tükəndiyini, olmadığını görüb, acizliklərini, məlubiyyətlərini, bu mübarizədə uduzduqlarını etiraf etdilər. Həm də ermənilərin "başbilənləri" bununla Azərbaycanın qalib olduğuna da imza ataraq şahidlik etdilər. Əbəs yerə deyildi ki, paytaxt Bakıda, eləcə də Azərbaycanımızın bütün bölgələrində vətəndaşlarımız qələbə sevincini yaşadığı zaman, Ermənistanda təlatümlər, küçələrə axışaraq parlament binasına insanların hücum etməsi müşahidə olunurdu ki, erməni xalqı düşdüyü müsibətin, düçar olduğu məğlubiyyətin səbəbkarını axtarmaqla məşğul idi. Düzdür, ermənilər tapmaq istədikləri səbəbkarın heç izinə belə düşə bilmədilər, hansıki, üçtərəfli sənəd imzalananda belə onun harda olduğu, sənədi harada imzaladığı bəlli deyildi, heç bu günə qədər də bəlli olmayıb.

Təbii ki, kapitulyasiya sənədinə harada, hansı şəraitdə və necə imza atmasından asılı olmayaraq erməni baş nazir Nikol Paşinyan Ermənistanın məğlubiyyətinə imza atdı. Bu imzası ilə erməni baş nazir Azərbaycanın qələbəsini qəbul və etiraf etdi. Ölkənin baş nazirinin imzası ilə təsdiq olunan Ermənistanın təslimiyyətinin bütün dünya şahidi oldu. Haqsız, özü də işğalçı olduqları halda, bir zamanlar dəstək duran, müharibə zamanı belə bu işğalçıların tərəfini saxlayan Fransadan tutmuş, işğalçılara yardımlar edən bəzi dövlətlərə, ermənilərin havadarlarına, erməniprəst qüvvələrə, bütün dünyaya səpələnən erməni lobbisinə qədər hamı şahidi oldu ki, Azərbaycan qalib, Ermənistan məğlubdur. Şahidi oldular ki, bu qədər çox olmalarına baxmayaraq Azərbaycana qalib gələ bilmədilər və onların buna gücü yetmədi, ölkəmiz onların birliyindən də güclü, qüdrətlidir. Məhz bu prizmadan yanaşdıqda da Ermənistanın kapitulyasiya sənədini imzalaması çox böyük önəm daşıyır və Azərbaycan tarixinə bu gün qızıl hərflərlə yazıldı.

Azərbaycanın hərb meydanında qələbələrinin ardınca təbii ki, rəqib tərəfin təslimiyyəti fonunda razılaşmalar olmalı idi və oldu da. Düşmən, bir çox ərazilərin müqavimətsiz şəkildə böşaldılması, silahlı birləşmələrinin ərazidən çıxarması və digər məsələləri öz üzərinə müxtəlif öhdəliklər şəklində götürmək məcburiyyətində qoyuldu. Bir sözlə, Ermənistanın imzaladığı kapitulyasiya aktı Azərbaycan Prezidenti İlham Əliyevin sərkərdəliyi ilə cəbhədə qazanılan parlaq qələbənin siyasi müstəvidəki davamı oldu. Məhz buna görə də, həmin o 10 noyabr günündən illər keçsə də unudulmaz gün olaraq yaddaşlardan silinməyəcək və Azərbaycanın şanlı tarixində qızıl hərflərlə yazılan bu gün hər zaman qürurla xatırlancaq. Çünki, bu tarix haqq savaşımızın qalibiyyətlə başa çatdığının, düşmənin isə rüsvayçılıqla məğlub olduğunun bütün dünya qarşısında etiraf edildiyi tarixdir.

***İnam Hacıyev***

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Sülhməramlıların məramları, yoxsa məramsızlıqları?

***Yenidən mövzunu Rusiya sülhməramlıları kontingentinin (RSK) Qarabağdakı ərazilərimizdəki fəaliyyətlərinə gətirmək istərdim. Çünki onların, əslində, əvvəlki günlərdən başlayan arzuolunmaz fəaliyyətləri ölkəmizdəki ictimai rəyi qıcıqlandırmağa, haqlı iradlar bildirməyə, hətta hiddətləndirməyə başlatmışdı. Bu gün bir çox siyasi dairələrdə RSK-nin Azərbaycandakı fəaliyyətlərinin "regionda sülhün bərqərar olması və möhkəmləndirilməsində apardıqları uğurlu fəaliyyətləri" barədə danışanlar ola bilər və bu danışılanların əksəriyyətinin, əslində, həqiqəti əks etdirməməsi də bir çox əsaslı faktlara söykənir. Görünür, qeyri-həqiqətlərdən vəcdə gələn RSK-nın ayağı bu xüsusda daha çox yer almağa başlayır. Nə isə, keçək mətləbə.***

Sülhməramlıların məramlarının nəyə hesablanması barəsində uzun uzadı misallar gətirmək olar və həmin misalların hər biri həqiqətdə onların sülh məramsızlıqlarını ortaya çıxarır. Misal üçün, RSK-nın missiyasının nədən ibarət olmasını unutmaları qalsın bir yana, onlar daha bir faktı da unutmamalıdırlar ki, fəaliyyətləri Azərbaycanın ərazisində qeydə alınır və onlar Azərbaycanın yük maşınlarına məhz öz ərazisində - Qarabağda hərəkət etmələrinə qadağalar qoymağa başladılar, işğaldan azad olunmuş ərazilərimizə daşınan tikinti-inşaat və s. materiallarını bizim maşınlarımızdan öz yük maşınlarına yüklənməsi qərarını da onlar veriblər. Yüklərin Azərbaycana məxsus olduğunu təsdiq etmək üçün həmin maşınlardan Azərbaycanın bayrağını almaq belə olmazmış (?!). Keçək digər fakta.

Rusiyanın Müdafiə Nazirliyi RSK-nın gündəlik informativ bülletenlərində separatçıların ərazilərimizə qoyduqları toponim adlarını işlədirlər - Xankəndiyə "stepanakert", Ağdərəyə "mardakert", Xocavəndə "martuni", Xocalıya "ivanyan" deyə istinad edirlər, yəni separatçıların əl-qol açmalarına maksimum şəraitlər yaradırlar. Və!

Və bu günlərdə Rusiya MN-i bir az da irəliyə getməklə bəyan edir ki, RSK sən demə "Dağlıq Qarabağda" xidmət aparırlarmış (??!!). Beləliklə sual yaranır ki, Rusiyanın MN-də topoqrafik ruhi xəstəlik yaranmağa başlayıb, yoxsa bu onların növbəti təxribat cəhdləridir?!

Bütün bunlar məlum və təəssüf ki, arzuolunmaz nəticələridir ki, hazırda Xankəndidə və ətrafda qalan, çıxarılmayan erməni silahlı qüvvələri nəinki Azərbaycanın suveren ərazilərini tərk etmirlər, əksinə, daha da azğınlaşaraq onların sayını artırırlar, səfərbərlik keçirirlər. Erməni həbrçilərinin avtomobil kolonları Laçın dəhlizi vasitəsi ilə Azərbaycanın ərazilərinə daxil olurlar, RSK isə onları müdafiə edirlər. Üstəlik - erməni silahlı qüvvələri maneəsiz şəkildə müdafiə xəttində dayanırlar, müdafiə bəndləri qururlar və bu istiqamətdəki fəaliyyətlərini rahatlıqla həyata keçirirlər.

Bu gün Rusiyanın rəsmi şəxsləri maneəsiz şəkildə Qarabağa, yəni Azərbaycanın ərazisinə Azərbaycandan deyil, Ermənistan ərazisindən daxil olurlar! Bu da azmış kimi, Azərbaycanın əraziisində həyata keçirilən "sülhməramlılıq missiyasının" müzakirələri Azərbaycanla deyil, Ermənistanla aparılır!!!

Və bu gün Ermənistanın rəsmi şəxsləri rahat və maneəsiz qaydada Azərbaycanın ərazilərinə səfərlər edirlər. Məsələn, Ermənistanın müdafiə nazirinin və keçmiş prezidentlərinin, xüsusilə Xocalı soyqırımını törətmiş birinin Qarabağa gəlmələri artıq bütün (!!!) sədləri, hədləri, sərhədləri aşır!

Bu gün RSK yalnız Qarabağdakı qanunsuz erməni silahlılarına yalnız hərbi təlimlər keçmirlər və həmin təlimlərin adını "düşməndən müdafiə" kimi xarakterizə edirlər. Sual yaranır: hansı düşməndən?! Üstəlik, özləri də zirehli hərbi texnikaları, aviasiyası, qumbaraatanları və minaatanları ilə hərbi təlimlər keçirirlər - sülhməramlılar kimə qarşı müdafiə olunmağı planlaşdırırlar?

Terrorçu, faşist, qaniçən cəllad Njdenin heykəli hələ də Azərbaycanın ərazisində qalır və RSK-nın hansısa məramsızları vaxitlə onların da babalarına qarşı silah çevirmiş bir hitlerçi faşistin abidəsi qarşısından rahatlıq keçib-gedirlər...

Bu kimi son bir ilə aid siyahını isə sonsuzluğa qədər uzatmaq olar. Ancaq bütün bunların bir amalı, bir məntiqi nəticəsi var - Azərbaycan qalib ölkə kimi bu qanunsuzluqlara son qoymalıdır. Və əgər bir sıra siyasi politoloqlar düşünürlərsə ki, Rusiya regional gücdür və ona qarşı ehtiyatlı davranmaq lazımdır, münasibətləri korlamamaq üçün bəzi məsələləri zamanın ixtiyarına buraxmaq gərəkdir və s - bütün bunlar sadəcə və sadəcə "bla", "bla", "blalardır", başqa heç nə!

Rusiya axmaq deyil və yaxşı bilir ki, Azərbaycan yenidən üzünün sərt tərəfini göstərsə, yaxud Azərbaycanı itirsə öz ətrafındakı düyününü daralda bilər. Bəli, hazırda Azərbaycan sadəcə bəyanatlarla kifayətlənir və daha çox "susmaq qızıldır" prinsipini icra etməklə xal toplayır, ümid edək ki, toplanan xallar Xankəndimizin azad olunmasına xərclənəcək.

***Keçən il - noyabrın 10-da Moskvada imzalanmış üçtərəfli bəyanat faktiki olaraq müharibənin qalibini və məğlubunu təsdiq etdi və Ermənistanın Qarabağ üzərindəki real hakimiyyətinə son qoydu. Azərbaycan və Ermənistan arasında bu kontekstdə imzalanmış üçtərəfli bəyanatı həm erməni, həm də digər xarici siyasi analitiklər İrəvanın kapitulyasiyası adlandırırlar. Bu yazıda razılaşmanın əhəmiyyətini və keçən 1 ildəki nəticələrini təhlil etməyə çalışacağıq.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Ermənistanın kapitulyasiya aktı: səbəbləri və 1 ildəki nəticələri

### Ən çətin problemi necə həll etdik?



Qarabağ probleminin həlli dünyada ən çıxılmaz vəziyyət kimi görünürdü. Burada elə bir formul tapmaq mümkün deyildi ki, həm hər iki tərəf razı qalsın, həm beynəlxalq hüquq və ədalət bərqərar olsun. Azərbaycan isə məsələni elə həll etdi ki, həm özünün bütün istəklərini yerinə yetirdi, həm də ermənilərin havadarlarının bütün bəhanələrini əlindən aldı.



44 günlük müharibə ərzində Azərbaycan Ordusu inanılmaz qəhrəmanlıq nümayiş etdirdi. Mükəmməl hərbi texnikalara, peşəkar döyüş vərdişlərinə yiyələnmiş ordumuz düzgün planlaşdırılmış döyüş əməliyyat planları nəticəsində Qarabağda fransızların yaratdığı "keçilməz" deyilən müdafiə xəttini darmadağın etdi və sürətlə Ermənistan sərhədlərinə doğru irəliləməyə başladı. Ermənistan ordusu 1 ay ərzində demək olar ki, tam darmadağın edildi. Sonrakı yarım ayı düşmən son mövqelərini ümidsiz müdafiəyə sərf etdi, Şuşa da azad edildikdən sonra ordusu tam darmadağın edilərək sıradan çıxarılmış İrəvan təslimçi razılaşmaya-faktiki kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Qarabağ problemi bizim əvvəllər məcburiyyətdən razı olduğumuz kimi və baza prinsiplərinə əsasən, 5+2 və Qarabağa yüksək muxtar statusla həll edilmədi. Biz Qarabağın dağlıq hissəsinə dünyadakı ən yüksək statusun verilməsinə belə razı idik, demək olar ki, yarımmüstəqil dövlət statusuna. İndi isə Azərbaycan bütün Qarabağı geri qaytardı- yarısını döyüşlə azad etdi, yarısını isə sülhlə qaytarmağa məcbur oldular. Üçtərəfli bəyanatda heç bir statusdan da söhbət getmədi. Yalnız kiçik bir hissədə mülki ermənilərin qalıb yaşamasına razı olduq- Xankəndi şəhəri və ətrafı, Ağdərə rayonunun çox hissəsi, Xocavənd rayonunun yarısı (keçmiş Martuni rayonu). Ermənilər cəmi 3 min kv km-lik ərazidə yaşaya bilərlər. Qarabağın azad edilmiş 15 min kv km-lik ərazisinin yalnız 3 min kv km-də, yəni beşdə birində- 20 faizində.

Ermənistanın bütün rəhbərləri, ictimai xadimləri etiraf edirlər ki, ermənilər özləri orada yaşamaq istəməyəcək və yaxın vaxtda Qarabağda erməni qalmayacaq. Ermənistanın keçmiş hərbi naziri Ohanyan da sazişi təslim aktı adlandırıb və hər şeyin itirildiyini bəyan edib: "Sazişdəki şərtlərə görə, Dağlıq Qarabağ Azərbaycanın sadəcə Ermənistana dəhlizi olan yığcam bir ərazisinə çevrilir. Proses ona aparıb çıxaracaq ki, oralarda erməni qalmayacaq. Deməli, son nəticədə, sülhməramlıların fəaliyyəti bizim üçün faydasız olacaq".

### Qarabağda nələr dəyişir?

Münaqişə başlamamışdan əvvəl Qarabağın bölgəsinin ümumi əhalisinin 76 faizi azərbaycanlılar, 23 faizi ermənilər olub. Qarabağ bölgəsindən qovulmuş 700 mindən artıq azərbaycanlı köçkün öz yurdlarına qayıdacaq. Bunların bir hissəsi də ermənilərin yaşamasına icazə verilən yerlərdə- keçmişdə yaşadıqları şəhər və kəndlərdə məskunlaşacaq. Yəni, ermənilərin yaşadığı bu kiçik ərazi hər tərəfdən Qarabağa qaytarılacaq 1 milyona yaxın azərbaycanlı ilə əhatə olunur.

Ermənilərin keçmiş vilayətdə sayı təxminən 120 min nəfər olub. Onların yarıdan çoxu keçən 30 ildə Amerikaya, Rusiyaya, Avropa ölkələrinə köçüb. Qalan 50-60 minlik erməninin də azı yarısı müharibədən sonra Ermənistana və ya başqa ölkələrə köçüb. Yerdə qalan 20-30 minlik erməni icması 1 milyona yaxın azərbaycanlının əhatələdiyi bölgədə yaşamalı olacaq, əlbəttə qalıb yaşamaq istəsələr.

Bu Qələbənin əhəmiyyətini saymaqla bitməz. Qarabağın azad olunmasının ölkəmizə verəcəyi böyük iqtisadi faydalar isə tamam başqa yazının mövzusudur və bu məsələləri əvvəlki yazılarmızda qeyd etmişik.

Hazırda Azərbaycan hökuməti Qarabağda böyük bərpa və quruculuq işlərini davam etdirir. Keçən 1 il ərzində işğal olunmuş ərazilərdə xeyli insfrastruktur layihələri həyata keçirilib, şəhər və kəndlərin bərpasına başlanılıb. Qarabağ böyük bir tikinti meydanına çevrilib. Bir çox xarici dövlətlər bölgədəki nəhəng layihələrə investisiya qoymaq və bu işlərdə iştirak etmək arzularını bildiriblər.

Zəngəzur nəqliyyat dəhlizinin bərpası işləri də sürətlə davam edir. Bu dəhlizin Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinə qoşulması ilə Azərbaycan böyük bir regionda həm tranzit qovşağına, həm də logistik mərkəzə çevriləcək. Ən əsası ölkəmizin anklavda olan hissəsi- Naxçıvanla birbaşa quru əlaqəsinin yaranması həddən artıq vacib və strateji əhəmiyyətli bir tarixi hadisə olacaq.



### NƏTİCƏ: kim nə qazandı, kim nə itirdi?

Regionda yeni əməkdaşlıq platformasının yaradılmasından bütün regon dövlətləri fayda əldə edəcək. O cümlədən, işğalçı və terrorçu siyasətindən əl çəkərsə, çökməkdə olan Ermənistan da. Region dövlətlərinin qazandıqlarına qısaca nəzər salaq.

Rusiyanın qazancı odur ki, dünyanın ən həllolunmaz problemlərindən birini həll etməklə və özünün ənənəvi rəqiblərini (ABŞ və Avropa) regiondan kənarda qoymaqla həm bölgədə, həm dünyada öz təsir və nüfuzunu daha da artırdı. Üstəlik, hər iki ölkəni öz tərəfinə daha da çəkməklə, Cənubi Qafqazı Amerika zonasına çevrilməkdən qurtardı. 3 Cənubi Qafqaz ölkəsindən yalnız biri-Gürcüstan Amerikanın müttifiqi kimi qalır ki, onun da bu prosesdən sonra mövqeləri xeyli zəifləди. Bundan başqa, Rusiya Zəngəzur dəhlizinin açılması ilə özünün cənub-qərb sərhədlərindən daha bir nəqliyyat dəhlizi əldə etmiş olur.

Türkiyənin qazancı- Naxçıvan ərazisindən Azərbaycanın bütün ərazisinə və Orta Asiyaya birbaşa çıxış əldə edir. Bundan başqa, Türkiyə Qarabağda sülhməramlı missiyada, sülhyaratma işində iştirak edir və bununla da regionda hərbi və siyasi nüfuzunu artırır. Üstəlik, yaxın gələcəkdə regional əməkdaşlıqdan, nəqliyyat dəhizlərindən xeyli iqtisadi fayda əldə edəcək.

İran da nəsə uduzmur, o da Türkiyə kimi regional əməkdaşlıq platformasından xeyli iqtisadi dividentlər əldə edəcək. Sanksiyalar altında və yarımblokada şəraitində qalaraq iqtisadiyyatı zəifləyən ölkə üçün bu çox əlverişli nəfəslikdir.

Gürcüstanın əsas qazancı odur ki, Cavaxetiya məsələsi getdi tarixin arxivinə, çünki müharibədən hərbi və iqtisadi cəhətdən darmadağın çıxan Ermənistan çox uzun müddət özünə gələ bilməyəcək ki, potensial etnik qarşıdurma ocağını alovlandırıb Gürcüstanda 2-ci Qarabağ yarada bilsin. Amma ölkənin strateji əhəmiyyəti və tranzitdən gəlirləri bir qədər azalacaq. Nəqliyyat dəhlizləri şaxələnəcək, Türkiyə və Azərbaycanın Gürsüstandan asılılğı azalacaq. Bununla belə, regional əməkdaşlıq platformasına qoşulsa daha çox fayda əldə edə bilər.

Ermənistan blokada şəraitindən çıxacaq, iqtisadi və ticari imkanları artacaq, regional əməkdaşlıq layihələrindən kənarda qalmayacaq, Zəngəzur dəhlizi vasitəsilə Rusiya, Şərqi Avropa və Orta Asiya ölkələrinə çıxış əldə edəcək. Əhalinin yaşayış səviyyəsi nisbətən yaxşılaşacaq.

### Qələbəni nəyin müqabilində qazandıq?

Bütün bu qələbə, ilk növbədə, Ali Baş Komandanın rəhbərliyi altında Ordumuzun, qəhrəman hərbçilərimizin hesabına əldə olundu. Lakin müharibəni təkcə dövlət, təkcə ordu aparmır. Arxa cəbhədə də müharibə gedirdi. Xalqımız orduya maddi-mənəvi dəstəyi ilə, informasiya müharibəsindəki zəhməti ilə, kibermüharibədəki zərbələri ilə Ermənistanın hərbi, siyasi, iqtisadi, texnoloji cəhətdən çökməsində böyük rol oynadı.

Nəticədə, Ermənistan təslimçi sülhə razı olmaq məcburiyyətində qaldı və bizim tələblərimiz yerinə yetirilmiş oldu. Azərbaycan böyük bir ərazini itki vermədən əldə etdi. İlham Əliyevin güclü sərkərdəlik qabiliyyəti, böyük siyasi-diplomatik təcrübəsi, ağıllı iqtisadi strategiyası sayəsində həm döyüş meydanında, həm də siyasi meydanda qələbə əldə olundu.

Beləliklə, çox qısa müddətdə Azərbaycan problemi həll etdi və torpaqlarını qaytararaq ərazi bütövlüyünü bərpa etdi. Bu müharibədə Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz ön cəbhədə, bütün xalqımız da arxa cəbhədə döyüşdü. Xalqla dövlətin birliyi qalib gəldi. Zaman keçəcək və hamı bu Qələbənin tariximizdə ən böyük və ən möhtəşəm Qələbə olduğunu və onun həlelik ortada olmayan strateji faydalarını da görəcək.

Prezidentimizin mükəmməl strateji düşüncəsi sayəsində Qarabağı ən yaxşı variantla, mümkün olan ən minimal itkilərlə azad etdik. Prezidentimizin prosesi ən uyğun beynəlxalq şəraitin yarandığı vaxtda, əvvəlcədən iqtisadi, siyasi-diplomatik və informasiya-təbliğat müharibəsini qazanmaqla başlaması, eyni vaxtda həm müharibəni, həm xarici siyasəti, həm informasiya müharibəsini, həm ölkənin idarə edilməsini mükəmməl aparmaqla arzu etdiyimizdən də böyük nəticəyə daha asan nail olması bunu deməyə əsas verir. İlham Əliyev böyük şahmat taxtasında sonuncu gedişlə "Mat" elan edərək qalib gəlmişdir. Bunu bütün dünyada, hətta düşmən dövlətin rəsmi və ictimai şəxsləri də etiraf edirlər.

Qələbəni regiona ən böyük təsir imkanı olan Rusiyanı və əksər ölkələri tərəfinə çəkərək qazanan, Qarabağı mümkün olan ən yaxşı şərtlərlə azad edən, milli birliyi təmin edən İlham Əliyev həm böyük dövlət rəhbəri, həm böyük sərkərdə, həm böyük milli lider olduğunu sübut etdi- həm öz adını, həm də 8 noyabrı qızıl hərflərlə tarixə yazdı.

***Elçin Bayramlı***

SON SƏHİFƏ

# Səs

11 noyabr
2021-ci il

# Mahir "Legiya"nın lideridir



***Futbol üzrə Milli komandamızın hücumçusu Mahir Emreli bu mövsüm komandası "Legiya"nın ən yaxşı futbolçusudur. Qol.az xəbər verir ki, Polşa mətbuatının açıqladığı statistikaya əsasən, 24 yaşlı futbolçumuz bütün turnirlər (Ekstraklasa, Çempionlar Liqası, Avropa Liqası, Polşa kuboku və Polşa Superkuboku) üzrə komanda yoldaşlarını qabaqlamağı bacarıb.***

"Legiya"da olduğum üçün qürur duyuram"

Emreli Rafael Lopeslə birgə ən çox oyun keçirən (26) iki futbolçudan biri, meydanda olma müddətinə görə isə (1609 dəqiqə) birincidir. O, bu görüşlərdə 11 qol vurub, 1 qolun ötürməsini edib. Beləliklə, "Legiya"nın 33 qolundan 11-ni futbolçumuz vurub ki, bu da ümumi qolların üçdə biri deməkdir. "Legiya"nın bombardirlər siyahısında olan ikinci futbolçu Muçinin ehtiyatında isə 4 qol var.

# Modelin 1 milyonluq hesabı bağlanır



***Slovakiyalı model Veronika Rajek "İnstaqram"da problem yaşayır. SİA xarici mətbuata istinadən xəbər verir ki, modelin 1,1 milyon izləyicisi olan hesabı davamlı olaraq bağlanır.***

Səbəb isə onun gözəlliyidir. Paylaşdıqları fotoların gerçək olduğuna inanmayan istifadəçilər onun hesabını "saxta" ittihamı ilə şikayət edirlər. Veronika Rajek hər dəfə hesabının yenidən açılması üçün mübarizə aparır.

***Ayşən Vəli***

# Bu saatlarda yatmaq ürəyə xeyirdir

***Birləşmiş Krallıqdakı Ekseter Universitetinin alimləri yuxu rejiminin ürək xəstələyi ilə əlaqəsini araşdırıblar.***



Araşdırmalarda 43-79 yaş arasında 88 min nəfər iştirak edib. Onların biləyinə taxılan cihaz bir həftə ərzində izlənilib. Daha sonra iştirakçıların yuxu saatları ilə ürəyinin sağlamlığı müqayisə edilib. Araşdırmalar nəticəsində məlum olub ki, saat 22:00 və 23:00 arası yatan şəxslərdə ürək xəstəliyinin olma riski aşağıdır.

23:00 - 00:00 arası yatan şəxslər isə ürək xəstəliyi riskini 12 faiz artırmış olur. Axşam saat 10-dan tez yatanlar isə bu riski 24 faiz artırır. Tədqiqatın aparıcı müəllifi David Plans bunu sirkadiyalı ritmlə əlaqələndirir:

"Bədənin fiziki və zehni fəaliyyətini tənzimləməyə kömək edən sirkadiyalı ritm adlanan 24 saatlıq daxili saatı var. Tədqiqatımızdan hələ də səbəb əlaqəsini çıxara bilməmişik. Amma nəticələr göstərir ki, çox erkən və ya gec yatmaq bədən saatını pozur və ürək-damar sağlamlığı üçün mənfi nəticələrə səbəb ola bilər".

# Əsrin sonuna qədər istilik 2.4 dərəcə artacaq...

***Bu gün alimlərin fikrincə, qlobal istiləşmənin qarşısını almaq üçün ən real üsullardan biri də atmosferdən parnik qazlarının sovrulmasıdır. Yəni bunun üçün dünyanın bir çox böyük şirkət və ölkələri əl-ələ verib bu istiqamətdə işləməlidirlər. İşləyirlərmi, təbii ki, yox. Görülən işlər isə, yəni atmosferdən parnik qazlarının çıxarılmasına olan cəhdlər çox cüzi nəzərə çarpır.***



Maraqlıdır ki, artıq alimlər, istisnasız olaraq, əsrin sonuna qədər istiliyin 2.4 dərəcəyə qədər arta biləcəyini bildirirlər. Əslində, bununla bağlı həyəcan təbili çalmaqdan da keçib. Çünki dediyimiz kimi, alimlər bunun baş verəcəyinə artıq əminliklərini belə gizlətmirlər. Qeyd olunur ki, bu səviyyədə artım nəzərdə tutulan 1,5 dərəcə artımdan xeyli yuxarıda olduğu üçün fəlakətlərə səbəb ola bilər.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Qlazqo şəhərində keçirilən 26-cı Tərəflər Konfransında hökumətlərin karbonun azaldılması ilə bağlı öhdəliklərinə baxmayaraq, Yer kürəsinin Paris İqlim Sazişində müəyyənləşdirilən nisbətdən daha çox istiləşəcəyi proqnozlaşdırılır. Qlazqoda nəşr olunan araşdırmada ölkələr tərəfindən qoyulan qısamüddətli hədəflərə görə, bu əsrin sonuna qədər temperatur artımı 2,4 dərəcə olacaq. Bu da BMT-nin İqlim Dəyişikliyi Konfransı danışıqlarında proqnozlaşdırılan 1,5 dərəcə həddi ötəcəyi mənasını verir. Bu səviyyənin artması, təbii ki, dəniz səviyyəsinin qalxmasına, quraqlığa, daşqınlara, istilik dalğalarına və daha nə bilim bundan da şiddətli tufanlara səbəb ola bilər.

Xatırladaq ki, Paris İqlim Sazişi ilə ölkələr qlobal temperatur artımını Selsi üzrə 2 dərəcədən "çox aşağı" olacaq nisbətdə məhdudlaşdırmağı vəd ediblər.

...Əsil, "nəynən, ay Alış?" soruşmağın məqamıdır.

***Ağasəf***

# "Apple 1" kompüter rekord qiymətə satıldı...



***Türkiyənin TRT-nin telekanalına istinad edən SİA xəbər verir ki, bu barədə BBC məlumat yayıb. Bildirib ki, 1976-cı ildə təkcə 200 ədəd istehsal olunmuş tam işlək "Apple 1" kompüter ABŞ-da keçirilən hərracda 400 min dollara satılıb.***

Kaliforniyadakı "John Moran Auctioneers" hərrac evindən verilən açıqlamada isə kompüterin ilk istifadəçisinin bir universitet professoru olduğu, ancaq onu 650 dollara bir tələbəsinə satdığı bildirilib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4600**